QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

# SƏS



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 191 (5422) 20 **oktyabr** 2017-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# Prezident İlham Əliyev Türkiyədə səfərdədir




Səh 2


Prezident İlham Əliyev İstanbulda İranın Birinci vitse-prezidenti Eshaq Cahangiri ilə görüşüb — 2



Leyla Əliyeva BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Qulam İshaqzai ilə görüşüb — 3



Novruz Məmmədov: "Siyasətdə baş verənlər idmanda da təkrar olunur" — 5



Bakıda MDB Sərhəd Qoşunları Komandanları Şurasının 78-ci iclası keçirilir — 5



YAP Gənclər Birliyinin nümayəndələri Dünya Gənclər və Tələbələr Festivalında iştirak edirlər — 3



Azərbaycan islam həmrəyliyi ideyalarına sadiq olduğunu bir daha bəyan edir — 7



6 — "Rusiya Ermənistana ona görə silah verir ki, onu nəzarəti altında saxlasın"



10 — Vaşinqtonda Ermənistan-Azərbaycan münaqişəsinə həsr edilmiş brifinq keçirilib



16 — "Qarabağ" Çempionlar Liqasında ilk xalını qazanıb!



# Prezident İlham Əliyev Türkiyədə səfərdədir



Oktyabrın 19-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə D-8 Zirvə görüşündə xüsusi qonaq qismində iştirak etmək üçün İstanbula gəlib. AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, İstanbulun Atatürk Beynəlxalq Hava Limanında Prezident İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü. Fəxri qarovul dəstəsinin rəisi Prezident İlham Əliyevə raport verdi. Dövlətimizin başçısı fəxri qarovul dəstəsini salamladı. Azərbaycan Prezidentini İstanbul valisi Vasip Şahin və digər rəsmi şəxslər qarşıladılar.

# Prezident İlham Əliyev İstanbulda İranın Birinci vitse-prezidenti Eshaq Cahangiri ilə görüşüb





***Oktyabrın 19-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İstanbulda İran İslam Respublikasının Birinci vitse-prezidenti Eshaq Cahangiri ilə görüşüb.***

AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, görüşdə Prezident İlham Əliyev ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyini bildirdi, siyasi əlaqələrimizin yüksək səviyyədə olduğunu vurğuladı. Azərbaycan Prezidenti iqtisadi əməkdaşlığın genişləndiyini, ölkələrimiz arasında mühüm infrastruktur layihələrinin həyata keçirildiyini qeyd etdi. Dövlətimizin başçısı prezidentlər səviyyəsində görüşlərin əlaqələrimizin genişləndirilməsi işinə töhfə verdiyini bildirdi.

İranın Birinci vitse-prezidenti Eshaq Cahangiri Azərbaycan ilə İran arasında iqtisadi əməkdaşlığın uğurla inkişaf etdiyini dedi, Astara-Astara dəmir yolu xəttinin həm ikitərəfli sahədə, həm də bölgədə əməkdaşlıq baxımından əhəmiyyətini qeyd etdi.

Eshaq Cahangiri regionda terrorizm təhdidlərinin olduğunu söylədi və buna qarşı mübarizədə ölkələrin səylərinin artırılmasının əhəmiyyətindən danışdı.

İqtisadi əlaqələrimizin uğurla inkişaf etdiyini deyən Prezident İlham Əliyev Astara-Astara dəmir yolu layihəsinə dünyada böyük marağın olduğunu qeyd edərək bildirdi ki, bu layihə bölgədə iqtisadi əməkdaşlığın inkişafına xidmət edir. Dövlətimizin başçısı dedi ki, Azərbaycan beynəlxalq terrorizmə qarşı fəal mübarizə aparan ölkələrdəndir və bu sahədə səylərini əsirgəmir.

Söhbət zamanı Azərbaycan ilə İran arasında energetika, əczaçılıq, sərmayə qoyuluşu, sənaye, o cümlədən birgə avtomobil istehsalı və digər sahələrdə əməkdaşlığın yaxşı perspektivlərə malik olduğu bildirildi və əlaqələrimizin inkişafına dair fikir mübadiləsi aparıldı.

# Prezident İlham Əliyev Ukrayna Baş nazirinin birinci müavininin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 19-da Ukrayna Baş nazirinin birinci müavini, iqtisadi inkişaf və ticarət naziri Stepan Kubivin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib. AZƏRTAC xəbər verir ki, Stepan Kubiv Ukrayna Prezidenti Petro Poroşenkonun salamlarını dövlətimizin başçısına çatdırdı.***

Söhbət zamanı Azərbaycan ilə Ukrayna arasında iqtisadiyyat və ticarət sahələrində əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri ətrafında fikir mübadiləsi aparıldı. Dövlətimizin başçısı Ukrayna Prezidenti Petro Poroşenkonun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Ukrayna Prezidentinə çatdırmağı xahiş etdi.



## Rəsmi xronika

Prezident İlham Əliyev Azərbaycan energetiklərinin "Tərəqqi" medalı ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Xanbala Tubail oğlu Orucova general-mayor ali hərbi rütbəsinin verilməsi haqqında Sərəncam imzalayıb.

***

Rusiya Federasiyasının Həştərxan vilayətinin qubernatoru Aleksandr Jilkin Azərbaycanın Dövlət Müstəqilliyi Günü münasibətilə Prezident İlham Əliyevə təbrik məktubu göndərib.

***

Rusiya Federasiyasının İnquş Respublikasının rəhbəri Yunusbek Yevkurov Azərbaycanın Dövlət Müstəqilliyi Günü münasibətilə Prezident İlham Əliyevə təbrik məktubu göndərib.

# Bakıda "İnnovasiya ekosisteminin qurulması" adlı seminar keçirilir

***Oktyabrın 19-da Bakıda "İnnovasiya ekosisteminin qurulması" adlı seminar başlayıb. AZƏRTAC xəbər verir ki, tədbirdə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva, Prezident Administrasiyasının gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri, Birinci vitse-prezidentin köməkçisi Yusuf Məmmədəliyev, təhsil naziri Mikayıl Cabbarov, nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə, iqtisadiyyat nazirinin müavini Sevinc Həsənova, Milli Məclisin deputatları, dövlət qurumlarının və özəl sektorun nümayəndələri iştirak ediblər.***






Seminarın keçirilməsində məqsəd müvafiq dövlət və özəl qurumların birgə innovasiya ekosisteminin təşəkkülü ilə bağlı fəaliyyət planının hazırlanmasına dəstək verməkdir.

Tədbirdə çıxış edən təhsil naziri Mikayıl Cabbarov insan kapitalının inkişaf etdirilməsi sahəsində dünyanın qabaqcıl təhsil ocaqlarından olan Berkli Kaliforniya, Stenford universitetləri, "Global Innovation Catalyst" şirkəti ilə əməkdaşlığın ölkəmizin ali təhsil sistemi üçün yeni imkanlar yaradacağını bildirdi. Prezident İlham Əliyevin təsdiq etdiyi iqtisadiyyatın inkişafı üzrə Strateji Yol xəritələrinin və "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın əsas məqsədlərindən biri kimi insan kapitalının vacibliyini vurğulayan təhsil naziri bu tədbirin gələcəyə baxış strategiyaları ilə innovasiyaların inkişafına xidmət edəcəyini diqqətə çatdırdı. Nazirin sözlərinə görə, bu üçtərəfli sinerjidə ali təhsil müəssisələri platforma rolunu oynaya bilər. İnnovativ ekosistemin formalaşması və inkişafında sahibkarlıq universitet modelinin günümüzdə daha da aktuallaşdığını qeyd edən Mikayıl Cabbarov Bakı Mühəndislik Universitetinin bu formada fəaliyyət göstərməsi üçün ilk addımlar atdığını bildirdi.

Nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə çıxışında Prezident İlham Əliyevin informasiya-kommunikasiya texnologiyalarının inkişafını hər zaman diqqət mərkəzində saxladığını qeyd etdi. Nazir dedi ki, iqtisadiyyatın hərtərəfli inkişafının təmini, o cümlədən yüksək texnologiyaların dinamik inkişafı istiqamətində dövlət tərəfindən bir sıra uğurlara nail olunub. Sumqayıt Texnologiyalar Parkı, Yüksək Texnologiyalar Parkı, İnformasiya Texnologiyalarının İnkişafı Dövlət Fondu, Mingəçevir Texnologiyalar Parkının yaradılması buna əyani nümunədir. Ramin Quluzadə İnformasiya Texnologiyalarının İnkişafı Dövlət Fondunun informasiya-kommunikasiya texnologiyaları sahəsində innovativ ideyaların dəstəklənməsi məqsədilə üç istiqamətdə fəaliyyət göstərdiyini dedi və bildirdi ki, bunlar startap layihələrinə qrantların ayrılması, biznesə çevrilən layihələrə güzəştli kreditlərin verilməsi və bir sıra layihələrdə investor kimi çıxış etməkdir. Fondun bu günədək keçirdiyi 5 qrant müsabiqəsinə 750-dən çox layihə təqdim olunub. Bu layihələrdən 112-si qalib elan edilib. Yüksək Texnologiyalar Parkında 30-dan çox layihə icra olunur. Bu istiqamətdə nazirlik tərəfindən mövcud ekosistemin inkişafına çox böyük müsbət təsir edəcək yeni innovasiya mərkəzi yaradılır. Hədəf isə İKT sahəsində "Made in Azerbaijan" brendi altında dünya bazarına məhsul və xidmətlər çıxarmaqdır. Ölkənin İKT sektorunda fəaliyyət göstərən startap layihələrinə yerli investorların cəlb edilməsi də prioritetlər arasındadır. Bu məqsədlə İT İnvestorlar Klubunun yaradılması istiqamətində işlər aparılır. Ramin Quluzadə universitetlərdə İKT sektoruna aid digər layihələrə də dəstək verildiyini bildirdi və buna misal olaraq ADA Universiteti ilə əməkdaşlığı qeyd etdi.

İqtisadiyyat nazirinin müavini Sevinc Həsənova isə çıxışında diqqəti Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən davamlı islahatlara yönəltdi. Bildirdi ki, bunun nəticəsində yaranan iqtisadi potensial dünya iqtisadiyyatında gedən mənfi proseslərdən yaranan şokların Azərbaycan iqtisadiyyatına təsirini minimuma endirib, iqtisadiyyatın yeni şəraitə uyğunlaşdırılmasına imkan yaradıb. İqtisadi sahədə strateji məqsədlərə nail olunmasında innovativ və iqtisadi ekosistem formalaşdırılmasının böyük rolu var. Sevinc Həsənova dedi ki, innovativ ekosistemin formalaşması, çoxşaxəli prosesdir və sahibkarlara, elmi-tədqiqat mərkəzlərinə və digər təşkilatlara səmərəli əməkdaşlıq etməyə imkan yaradır.

Çıxışlardan sonra "Global Innovation Catalyst" şirkətinin təsisçisi və sədri Kəmran Elahianın "Qazıntı iqtisadiyyatından innovativ iqtisadiyyata" mövzusunda təqdimatı oldu. Sonra Berkli Kaliforniya Universitetinin professoru Qreqori LaBlank "Startap ekosistemi: Silikon Vadisinin əsasları və hökumətin rolu" mövzusunda seminar keçdi.

Üç gün davam edəcək seminarda iştirakçılar sahibkarlıq ekosisteminin transformasiyası əsasında bilik əsaslı və innovativ iqtisadiyyatın qurulmasına dair üçillik fəaliyyət planı hazırlayacaqlar. Seminar çərçivəsində vençur maliyyəsi, sahibkarlıq təhsili və mədəniyyəti mövzusunda təlim və müzakirələr, vençur investorların panel müzakirəsi təşkil olunacaq.

Təhsil, İqtisadiyyat, Rabitə və Yüksək Texnologiyalar nazirlikləri, Azərbaycan Milli Elmlər Akademiyası və Bakı Mühəndislik Universiteti tərəfindən təşkil olunan tədbir çərçivəsində Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva seminar iştirakçıları ilə görüşdü.



# Leyla Əliyeva BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Qulam İshaqzai ilə görüşüb

***Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi, eyni zamanda, BMT-nin İnkişaf Proqramı və BMT-nin Əhali Fondunun rezident nümayəndəsi Qulam İshaqzai ilə görüşüb.***

AZƏRTAC xəbər verir ki, görüşdə IDEA ilə BMT sisteminin qurumları arasında yeni əməkdaşlıq imkanları, o cümlədən BMT-nin Davamlı İnkişaf Məqsədlərinin həyata keçirilməsi və ətraf mühit problemlərinin həllində birgə fəaliyyət perspektivləri müzakirə edilib.

Həmçinin BMT-nin İnkişaf Proqramının dəstəyi ilə Azərbaycanın xüsusi mühafizə olunan təbiət ərazilərinin tərkibindəki sahilyanı ekoloji sistemlərdə idarəetmənin təkmilləşdirilməsi üzrə həyata keçirilən layihə ətrafında fikir mübadiləsi aparılıb.

Layihənin məqsədi Azərbaycanın özünəməxsus, dünyada nadir rast gəlinən bioloji müxtəliflik nümunələrinin qorunub saxlanılması məqsədilə xüsusi mühafizə olunan təbiət ərazilərinin yaradılması və səmərəli idarə olunmasıdır. Qeyd edək ki, sözügedən layihə çərçivəsində Qızılağac Dövlət Təbiət Qoruğu kompleksində aparılan yenidənqurma və təkmilləşdirilmə işləri nəticəsində Azərbaycanda regionun ilk xüsusi mühafizə olunan dəniz ərazisi yaradılacaq.

Görüşdə ətraf mühit, davamlı inkişaf və digər məsələlər üzrə əməkdaşlığın davam etdirilməsi və daha da gücləndirilməsi barədə razılığa gəlinib.

# YAP Gənclər Birliyinin nümayəndələri Dünya Gənclər və Tələbələr Festivalında iştirak edirlər



Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin nümayəndə heyəti Rusiyanın Soçi şəhərində keçirilən 19-cu Dünya Gənclər və Tələbələr Festivalında iştirak edir. YAP Gənclər Birliyindən AZƏRTAC-a verilən məlumata görə, festivala 150 ölkədən 30 minə qədər gənc qatılıb. Beynəlxalq tədbirdə iqtisadiyyat, siyasət, beynəlxalq təhlükəsizlik, mədəniyyət və müxtəlif elm sahələri üzrə məsələlər müzakirə olunur. Festivala Rusiya artıq 3-cü dəfə ev sahibliyi edir.

Oktyabrın 14-də işə başlayan festival ayın 22-də yekunlaşacaq. Rəsmi açılışda Rusiya Prezidenti Vladimir Putin gəncləri salamlayaraq festivalın işinə uğurlar arzulayıb. Festivalda hər sahəyə aid görkəmli şəxslər öz təcrübələrini gənclərlə bölüşüblər. Azərbaycan nümayəndə heyəti 18 oktyabr - Dövlət Müstəqilliyi Günü ilə əlaqədar festivalda müxtəlif proqramlar təşkil edib.





# "Qaçqın və məcburi köçkünlərin problemlərinin həlli dövlətimizin başçısının ən çox diqqət yetirdiyi prioritet sahələrdəndir"

***Oktyabrın 19-da Baş nazirin müavini, Dövlətqaçqınkomun sədri Əli Həsənovun sədrliyi ilə Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsində cari ilin doqquz ayının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş geniş tərkibdə kollegiya iclası keçirilib.***

Komitənin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, kollegiya iclasını giriş sözü ilə açan Baş nazirin müavini, Dövlətqaçqınkomun sədri Əli Həsənov gündəliyə daxil edilmiş məsələlərin müzakirəsi zamanı əsas diqqəti Prezident İlham Əliyevin sədrliyi ilə keçirilən Nazirlər Kabinetinin cari ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasındakı geniş və proqram xarakterli çıxışında səsləndirdiyi müddəalara və qarşıya qoyduğu vəzifələrə yönəldib. Bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan uğurlu sosial-iqtisadi islahatlar və məqsədyönlü siyasət nəticəsində ölkəmizin iqtisadi potensialı daha da güclənib, davamlı inkişaf dinamikası təmin olunub.

Baş nazirin müavini Əli Həsənov dövlətimizin başçısının həmin iclasdakı çıxışına və statistik rəqəmlərə istinad etməklə bu ilin ötən dövründə ölkədə iqtisadi inkişafın təmin olunduğunu, sosial məsələlərin həllini tapdığını diqqətə çatdırıb, həmçinin dövlətimizin başçısının rəhbərliyi altında ölkəmizin bütün sahələr üzrə qazandığı nailiyyətlərdən, diplomatik uğurlardan, respublikamızın dünya birliyində reytinqinin yüksəlməsinə səbəb olan amillərdən ətraflı söhbət açıb. Prezident İlham Əliyevin siyasətinin, bu siyasət nəticəsində əldə olunan uğurların mərkəzində Azərbaycan vətəndaşının dayandığını deyən Əli Həsənov bildirib ki, müəyyən çətinliklərə baxmayaraq, dövlətimizin başçısının rəhbərliyi altında Azərbaycan iqtisadiyyatı inkişaf etdiyindən bütün əsas vəzifələr icra olunub.

"Azəri", "Çıraq" və "Günəşli" yataqları üzrə yeni Sazişin imzalanmasının ölkəmiz üçün çox böyük tarixi əhəmiyyət kəsb etdiyini deyən Əli Həsənov bildirib ki, əgər 1994-cü ildə imzalanan "Əsrin müqaviləsi" XX əsrin tarixi hadisəsi olaraq ulu öndər Heydər Əliyevin adı ilə bağlı idisə, 2017-ci ildə imzalanan XXI əsrin müqaviləsi Prezident İlham Əliyevin adı ilə bağlıdır. Ancaq hər iki tarixi hadisənin əsasında ümummilli lider Heydər Əliyevin ideyaları dayanır. Yeni imzalanan Saziş ölkəmizin iqtisadi inkişafını daha da sürətləndirəcək.

Bir nömrəli problemimiz Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən danışan Əli Həsənov onu da bildirib ki, bu işdə biz özümüzə və öz gücümüzə arxalanmalıyıq, problemin həllində Azərbaycan xalqının, o cümlədən məcburi köçkünlərin yeganə ümid yeri hər bir azərbaycanlının Prezidenti olan İlham Əliyevdir. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli bizim üçün prioritet məsələdir. Bu məsələnin tezliklə beynəlxalq hüququn norma və prinsipləri əsasında, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməsi bizim üçün əsas vəzifədir.

Nyu-Yorkda keçirilən BMT-nin Baş Assambleyasının 72-ci sessiyasına toxunan Əli Həsənov diqqətə çatdırıb ki, Ermənistandakı cinayətkar rejimə rəhbərlik edən Serj Sarkisyan sessiyadakı çıxışında həmişə olduğu kimi heç bir əsasa söykənməyən fikirləri böyük gülünc doğurdu və Ermənistanın özündə böyük narahatçılığa səbəb oldu. Bu çıxışla Ermənistan prezidenti özünü bütün dünya ictimaiyyəti qarşısında rüsvay etdi. Lakin Azərbaycan Prezidenti İlham Əliyev BMT-nin mötəbər tribunasında məğrurcasına dayanaraq, faktlara söykənən təmkinli və yüksək səviyyəli çıxışı ilə son 25 ildə Ermənistanın cinayətkar rejiminin törətdiyi hadisələri bütün dünyanın diqqətinə çatdırdı. Həmçinin çıxış üçün ayrılmış çox qısa bir vaxt ərzində ölkəmizin keçdiyi inkişaf yolu, qazandığı böyük uğurlar barədə dolğun təsəvvür yaratdı.

Cocuq Mərcanlının bərpasını Böyük Qayıdışın başlanğıcı adlandıran Baş nazirin müavini Əli Həsənov Nazirlər Kabinetinin son iclasındakı çıxışında Prezident İlham Əliyevin də bu tarixi hadisəyə bir daha xüsusi önəm verdiyini diqqətə çatdıraraq bildirib ki, hazırda kənddə ikinci mərhələdə aparılan bərpa işləri də dövlətimizin başçısının tapşırığı və nəzarəti altında həyata keçirilir. Ən başlıcası isə Prezident İlham Əliyevin uğurlu ideoloji siyasətinin nəticəsidir ki, artıq bütün dünya Cocuq Mərcanlı kəndi, vaxtilə onun işğala məruz qalaraq vəhşicəsinə dağıdılması, bu gün isə işğaldan azad olunaraq bərpa edilməsi, bu yerlərin Azərbaycan torpağı olması barədə tam məlumatlıdır.

Diqqətə çatdırılıb ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti kimi Mehriban Əliyevanın ilk müşavirəsini Bakı və Sumqayıt şəhərlərindəki qəzalı vəziyyətdə olan yataqxanalarda müvəqqəti məskunlaşmış qaçqın və məcburi köçkün ailələrinin köçürülməsinə həsr etməsi, may ayında Birinci vitse-prezident tərəfindən Qaradağ rayonunun Lökbatan qəsəbəsinin yaxınlığında 1026 məcburi köçkün ailəsi üçün bütün sosial-texniki infrastrukturu ilə salınan yeni yaşayış məhəlləsinin təməlinin qoyulması, bu yaxınlarda isə "Qəzalı vəziyyətdə olan binalarda məskunlaşmış məcburi köçkün ailələrinin yeni mənzillərlə təmin olunması layihəsi"nin icrası çərçivəsində daha ağır vəziyyətdə yaşayan 214 məcburi köçkün ailəsinin Masazır və Mehdiabad qəsəbələrindəki "Gənclər Şəhərciyi"ndə yeni mənzillərlə təmin olunması, oktyabrın 5-də isə birincin xanımın həmin layihə çərçivəsində Masazır və Ramana qəsəbələrində məcburi köçkünlər üçün inşa edilmiş daha 260 ailəlik binaların açılış mərasimlərində iştirak etməsi, həmin tədbirlərdəki çıxışları zamanı bu sahədə işlərin sürətləndirilməsi və təxirəsalınmaz tədbirlərin görülməsinin vacibliyini önə çəkməsi və bunlara uyğun olaraq artıq başlanan işlərin uğurla davam etdirilməsi də məhz bu diqqət və qayğının nəticəsidir. Bütün bunlar bir daha onu göstərir ki, qaçqın və məcburi köçkünlərin problemlərinin həlli Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin də fəaliyyətinin prioritetidir.

Prezident İlham Əliyevin də bütün mötəbər tədbirlərdə, yığıncaqlarda olduğu kimi, Nazirlər Kabinetinin son iclasında da ölkəmizdəki qaçqın və məcburi köçkünlərin problemlərini, onların həlli yollarını önə çəkməsini bu təbəqədən olan soydaşlarımıza hərtərəfli dövlət qayğısının təzahürü kimi dəyərləndirən Əli Həsənov deyib ki, dövlətimizin başçısı bu iclasda da məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması istiqamətində görülən işlərdən, bu sahədə nəzərdə tutulan tədbirlərdən danışaraq problemin həlli yollarını da müəyyənləşdirib. Bildirib ki, bu təbəqədən olan soydaşlarımızın problemləri daim diqqət mərkəzindədir, köçkünlərlə bağlı məsələlər öz həllini tapır. Bakıda, Sumqayıtda, digər bölgələrdə tikinti işləri geniş vüsət alıb: "Bu il minlərlə məcburi köçkün ailəsi yeni evlərlə, mənzillərlə təmin olunacaq Bu proses gələn il də davam etdiriləcək. Hələ ki, ağır vəziyyətdə yaşayan köçkünlərimiz çoxdur. Dövlət əlindən gələni edir ki, bu məsələ tezliklə öz həllini tapsın. Bilirsiniz ki, 250 mindən çox məcburi köçkün dövlət tərəfindən evlərlə, mənzillərlə təmin edilib" ,- deyə Əli Həsənov qeyd edib.

Prezident İlham Əliyevin yürütdüyü siyasətin təməl prinsiplərindən olan qaçqın və məcburi köçkünlərin həyat səviyyəsinin yaxşılaşdırılmasını, onların müxtəlif problemlərinin həllinə hərtərəfli dövlət qayğısının müntəzəm diqqət mərkəzində saxlanılmasını önə çəkən Baş nazirin müavini bildirib ki, bu gün ölkədəki bütün qaçqın və məcburi köçkünlər tam şəkildə dövlətin təminatındadır, onların problemlərinin, xüsusən də mənzil-məişət problemlərinin həlli dövlətimizin başçısı İlham Əliyevin gündəlik diqqət mərkəzindədir. Bu baxımdan bu il də məcburi köçkünlər üçün yeni qəsəbələr salındığını diqqətə çatdıran Əli Həsənov deyib ki, onlardan biri Tərtər rayonunda bütün sosial-texniki infrastrukturu ilə birlikdə inşa edilən 1176 ailəlik böyük qəsəbədir, yaxın günlərdə bu yaşayış kompleksi istifadəyə veriləcək. Eyni zamanda, Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamına uyğun olaraq Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində ikinci mərhələdə aparılan bərpa işləri, əlavə olaraq 100 evin, digər infrastrukturların da inşası başa çatmaq üzrədir.

Həmçinin, Bakı və Sumqayıt şəhərlərində qəzalı binalarda yaşayan köçkünlərin problemlərinin də yaxın vaxtlarda öz həllini tapacağına əminliyini bildirən Əli Həsənov bir daha diqqətə çatdırıb ki, dövlətimizin başçısının da, birinci xanımın da vurğuladıqları kimi, ilk növbədə, ən ağır vəziyyətdə yaşayan dörd min köçkün ailəsi yeni evlərə köçürüləcək. Bu proses mərhələli yollarla həll edilir, həm yeni binalar tikilir, eyni zamanda, vaxtilə tikilmiş mövcud binalarda mənzillər alınaraq məcburi köçkünlər orada yerləşdirilir.

Kollegiya iclasında vurğulanıb ki, Prezident İlham Əliyevin ölkəmizin bir saylı problemi elan etdiyi və gündəlik diqqət mərkəzində saxladığı qaçqın və məcburi köçkünlərin problemlərinin həlli ilə bağlı mühüm tapşırıq və göstərişlərinin, bu sahə ilə bağlı ölkə başçısının müvafiq Sərəncamları ilə təsdiqlənən Dövlət Proqramı və ona edilmiş əlavələrdə, digər normativ-hüquqi sənədlərdə nəzərdə tutulmuş bütün tədbirlərin həyata keçirilməsinin ardıcıl və tam şəkildə təmin edilməsi üçün Dövlətqaçqınkomun kollektivi bundan sonra da əzmlə çalışacaq, bu təbəqədən olan soydaşlarımızın müxtəlif problemlərinin həlli ilə bağlı qarşıya qoyulmuş vəzifələri vaxtında və keyfiyyətlə yerinə yetirəcək.

Sonra gündəlikdə duran məsələlər ətrafında geniş müzakirə aparılıb.

# Bakıda MDB Sərhəd Qoşunları Komandanları Şurasının 78-ci iclası keçirilir

***Oktyabrın 18-20-də Bakıda Müstəqil Dövlətlər Birliyinin (MDB) Sərhəd Qoşunları Komandanları Şurasının (SQKŞ) 78-ci iclası keçirilir. AZƏRTAC xəbər verir ki, Azərbaycan tərəfinin təşkilatçılığı ilə keçirilmiş tədbirdə Belarus, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Rusiya, Tacikistan və Türkmənistanın sərhəd xidmətləri, SQKŞ-nin Əlaqələndirici Xidməti, MDB-nin İcraiyyə Komitəsi, MDB-nin Antiterror Mərkəzi, Sərhəd Xidməti Veteranlarının Beynəlxalq İctimai Birliklər İttifaqının Əlaqələndirici Şurasının nümayəndə heyətləri iştirak ediblər.***








İclasda iştirak edən nümayəndə heyətlərinin rəhbərləri oktyabrın 18-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən qəbul ediliblər. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev MDB iştirakçı dövlətlərinin Sərhəd Qoşunları Komandanları Şurasının növbəti iclasının Bakıda keçirilməsindən məmnunluğunu ifadə edib, ölkəmiz üçün sərhəd təhlükəsizliyinin vacibliyini və beynəlxalq sərhəd əməkdaşlığının əhəmiyyətini qeyd edib.

İclasdan əvvəl nümayəndə heyətlərinin rəhbərləri Fəxri xiyabanda ümummilli lider Heydər Əliyevin məzarı önünə əklil qoyaraq Ulu Öndərin xatirəsinə hörmət və ehtiramlarını bildiriblər.

Daha sonra tədbir iştirakçıları Şəhidlər xiyabanını ziyarət edərək Azərbaycanın müstəqilliyi uğrunda həlak olanların xatirəsini yad ediblər.

Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti 1992-ci ildən fəaliyyət göstərən və Müstəqil Dövlətlər Birliyinin üzv ölkələri arasında sərhəd təhlükəsizliyinin təmin olunması sahəsində əməkdaşlıq məsələlərinin əlaqələndirilməsini həyata keçirən SQKŞ-nin iclaslarında müşahidəçi qisminə iştirak edir. Sərhəd Qoşunları Komandanları Şurasının 2001-ci ildə 40-cı, 2008-ci ildə 60-cı və 2013-cü ildə 70-ci iclasları Bakı şəhərində keçirilib.

Sərhəd Qoşunları Komandanları Şurasının 78-ci iclasının açılışında Azərbaycan Respublikası Prezidentinin hüquq mühafizə orqanları ilə iş və hərbi məsələlər üzrə köməkçisi Fuad Ələsgərov çıxış edərək beynəlxalq terrorçuluğa, separatçılığa, transmilli mütəşəkkil cinayətkarlığa, qanunsuz miqrasiyaya, kütləvi qırğın silahlarının komponentlərinin və narkotik vasitələrin qaçaqmalçılığına qarşı mübarizənin və beynəlxalq təhlükəsizliyin əsas şərtlərindən birinin dövlət sərhədlərinin etibarlı mühafizəsi olduğunu qeyd edib, Azərbaycan Respublikasının sərhəd təhlükəsizliyi məsələlərinə xüsusi önəm verildiyini vurğulayıb.

İclasda MDB iştirakçısı olan dövlətlərin sərhədlərində vəziyyət və onun inkişaf tendensiyaları barədə fikir mübadiləsi aparılıb, 2017-ci il üzrə xidməti-döyüş fəaliyyətlərinin nəticələri və 2018-ci ildə planlaşdırılan əməliyyatlar, MDB çərçivəsində sərhəd əməkdaşlığının hazırkı vəziyyəti və onun inkişaf perspektivləri nəzərdən keçirilib, 2018-ci il üçün Fəaliyyət Planı müzakirə olunub. Bununla yanaşı, aidiyyəti nümayəndə heyətləri arasında ikitərəfli formatda görüşlər keçirilib, qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb. Tədbir çərçivəsində nümayəndə heyətləri Dövlət Sərhəd Xidmətinin struktur bölmələrinin fəaliyyəti ilə tanış olublar.

## Novruz Məmmədov: "Siyasətdə baş verənlər idmanda da təkrar olunur"



"Siyasətdə baş verənlər idmanda da təkrar olunur". SİA-nın məlumatına görə, bunu Azərbaycan Prezidentinin xarici siyasət məsələləri üzrə köməkçisi Novruz Məmmədov "Twitter"dəki səhifəsində yazıb.

PA rəsmisi qeyd edib: "Heç bu dərəcədə təsəvvür etməzdim. İdmanda da Azərbaycan komandasını - "Qarabağ" klubunu sıxışdırdılar, bir neçə dəfə açıq-aydın cəzalandırdılar. Rəqib komandaya isə penalti və digər pozuntulara göz yumuldu. Siyasətdə baş verənlər idmanda da təkrar olunur".

## MDB Sərhəd Qoşunları Komandanları Şurasının iclasında 25 qərar imzalanıb



MDB Sərhəd Qoşunları Komandanları Şurasının 78-ci iclasında 25 qərar imzalanıb. AZƏRTAC xəbər verir ki, bu sözləri oktyabrın 19-da MDB Sərhəd Qoşunları Komandanları Şurasının koordinasiya xidmətinin sədri, Rusiya Sərhəd Qoşunları komandanının sədr müavini general-polkovnik Aleksandr Manilov jurnalistlərə müsahibəsində deyib. "Bugünkü iclasın gündəliyinə üzv ölkələrin xarici sərhədlərində sərhəd təhlükəsizliyinin möhkəmlənməsi ilə bağlı 9 çox əsas məsələ daxil edilib. İmzalanan sənədlərin əksəriyyəti ölkələrin xarici sərhədlərində, o cümlədən Tacikistan-Əfqanıstan sərhədində və MDB ölkələrinin təhlükəsizliyinə təhdid təşkil edə biləcək hissələrində yaranmış vəziyyətlə bağlı müzakirələrin nəticəsinə dair olub", - deyə A.Manilov bildirib. General-polkovnikin sözlərinə görə, iclasda sərhəd təhlükəsizliyinin möhkəmləndirilməsinə, habelə sərhəd təhlükəsizliyinin təminatı sahəsində əməkdaşlıq və informasiya mübadiləsinin həyata keçirilməsi ilə bağlı razılığa gəliblər.

İclasda mütəşəkkil cinayətkarlıq, narkotiklərin qanunsuz dövriyyəsi, sərhədlərdə miqrasiya prosesləri və digər məsələlərin də müzakirə olunduğunu bildirən A.Manilov deyib ki, tərəflər, həmçinin MDB məkanında təhsil müəssisələrində zabit heyətinin hazırlanması məsələsini də gündəliyə çıxarıblar.

## Arzu Rəhimov Sumqayıtda vətəndaşları qəbul edib

Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi general-leytenant Arzu Rəhimov Sumqayıt şəhərində Sumqayıt, Abşeron, Qubadlı, Şuşa, Xocavənd, Cəbrayıl, Zəngilan, Laçın, Kəlbəcər, Xocalı şəhər və rayonlarının sakinlərinin qəbulunu həyata keçirib. SİA-nın verdiyi məlumata görə, qəbulda 25 vətəndaş iştirak edib. Vətəndaşların müraciətləri daha çox Xidmətin aidiyyəti şöbə, bölmələrində işə və ya həqiqi hərbi xidmətə qəbul, eləcə də övladlarının gələcək xidmət yerinin müəyyənləşdirilməsinə dair olub. Qəbul zamanı irəli sürülən bəzi məsələlər yerindəcə həllini tapıb, qanunvericiliyin tələbləri vətəndaşlara izah edilib. Araşdırılması tələb olunan müraciətlər nəzarətə götürülüb və müvafiq araşdırmalardan sonra cavablandırılacağı bildirilib. Vətəndaşların Xidmətin fəaliyyət istiqamətinə aid olmayan məsələlərlə bağlı müraciətləri müvafiq qurumlara çatdırılmaq üçün qeydiyyata alınıb.



## Naxçıvan Muxtar Respublikası Ali Məclisində görüş keçirilib



Oktyabrın 19-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Fransa Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri xanım Orelia Buşez ilə görüşüb. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Ali Məclisin Sədri səfirin geniş tərkibdə muxtar respublikaya səfərinin Fransa dövlətinin Naxçıvana marağı və diqqəti kimi dəyərləndirib, Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Fransa Respublikası arasında elm, təhsil və iqtisadi-ticarət sahəsindəki əlaqələrdən danışıb. Muxtar respublikanın 38 təhsil müəssisəsində Fransız dilinin tədris olunduğunu və Naxçıvan Dövlət Universitetində Fransız dilini ixtisasının fəaliyyət göstərdiyini diqqətə çatdıran Ali Məclisin Sədri Azərbaycan-Fransa beynəlxalq ekspedisiyası tərəfindən muxtar respublikada aparılan tədqiqatların əhəmiyyətini vurğulayıb, qarşılıqlı əlaqələrin davam etdiriləcəyini əminliyini ifadə edib.

Səmimi qəbula görə minnətdarlıq edən xanım Orelia Buşez Naxçıvanla tanışlığın onda dərin təəssürat yaratdığını diqqətə çatdırıb. Ölkələrimiz arasındakı dostluq münasibətlərinə toxunan səfir Fransa-Naxçıvan əlaqələrinin inkişafının və muxtar respublikada Fransız dilinin tədrisinin məmnunluq doğurduğunu bildirib, əməkdaşlığın daha da genişləndiriləcəyini vurğulayıb.

## Daxili İşlər Nazirliyinin Əlahiddə Çevik Polis Alayının inzibati ərazisində cüdo zalının açılışı olub

***Oktyabrın 19-da Daxili İşlər Nazirliyinin (DİN) öncül qurumlarından olan xüsusi təyinatlı Əlahiddə Çevik Polis Alayının inzibati ərazisində cüdo zalının açılışı olub.***



DİN-in mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, tədbirdə iştirak edən daxili işlər naziri, general-polkovnik Ramil Usubov və Dövlət Neft Şirkətinin prezidenti, Azərbaycan Cüdo Federasiyasının rəhbəri Rövnəq Abdullayev zalda əməkdaşların bu idman növü ilə məşğul olmaları üçün yaradılan şəraitlə tanış olub, görülən işləri yüksək qiymətləndiriblər.

Daxili işlər naziri yeni cüdo zalının açılışı münasibətilə şəxsi heyəti təbrik edib. O, əlamətdar hadisənin təməlində ölkəmizdə idmanın, Olimpiya Hərəkatının inkişafına dövlətimizin başçısı, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyevin verdiyi böyük dəstəyin, onun rəhbərliyi ilə həyata keçirilən genişmiqyaslı tədbirlərin dayandığını vurğulayıb, məhz bunun nəticəsində son illər ərzində paytaxt da daxil olmaqla respublikanın digər şəhər və rayonlarında 40-dan çox yüksək səviyyəli idman obyektinin, Olimpiya idman mərkəzlərinin tikilib istifadəyə verildiyini diqqətə çatdırıb.



Nazir xüsusilə qeyd edib ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyevanın yüksək diqqəti və təşkilatçılığı sayəsində Avropa və İslam Həmrəyliyi Oyunları, Formula-1 Bakı Qran-Pri yarışları, Dünya Şahmat Olimpiadası kimi mötəbər beynəlxalq yarışların respublikamızda keçirilməsi ölkəmizin potensialının, multikulturalizmə, sivilizasiyalararası dialoqa verdiyi mühüm töhfələrin əyani göstəricisidir.

Nəzərə çatdırılıb ki, ölkəmizdə idman sahəsində uğurların qazanılmasında daha bir önəmli amil bədən tərbiyəsinin inkişafına, kütləviləşməsinə cavabdehlik daşıyan dövlət qurumlarının, xüsusən Milli Olimpiya Komitəsi başda olmaqla müxtəlif idman federasiyalarının, cəmiyyətlərinin və klublarının vahid komanda kimi fəaliyyət göstərməsidir.

Daxili işlər orqanlarının inkişafına, maddi-texniki bazasının gücləndirilməsinə, əməkdaşların xidməti şəraitinin yaxşılaşdırılmasına göstərdiyi yüksək diqqət və qayğıya görə dövlət başçısı, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyevə bütün şəxsi heyət adından dərin minnətdarlığını bildirən general-polkovnik Ramil Usubov polis əməkdaşlarının yeni idman kompleksində öz ustalıqlarını artırmaqla ictimai asayişin qorunmasında, cinayətkarlıqla mübarizədə daha qətiyyətli və əzmkar olacaqlarına əminliyini ifadə edib.

## Professor Əziz Əliyev: Bu müqavilə Prezident İlham Əliyevin düşünülmüş sosialyönümlü siyasətinin nəticəsidir




***Bu gün Azərbaycan Milli Onkologiya Mərkəzi üçün əlamətdar gündür. Şüa terapiyası zamanı xəstələrin immobilizasiyasını və yerləşdirilməsini təmin edən sistem və avadanlıqların dünyada tanınmış təchizatçısı olan Belçikanın "Orfit Industries" şirkəti ilə uzunmüddətli (5 illik) əməkdaşlıq haqqında müqavilə imzalanıb.***

Bu müqaviləyə əsasən Milli Onkologiya Mərkəzi referens-mərkəz statusu alıb. AZƏRTAC xəbər verir ki, Milli Onkologiya Mərkəzinin baş direktorunun birinci müavini, professor Əziz Əliyev bunu jurnalistlərə müsahibəsində açıqlayıb. Professor Ə.Əliyev deyib: "Bu saziş tərəfdaşlar arasında əməkdaşlığı daha da genişləndirməyə, Azərbaycanda ən yeni texnologiyaların qısa müddətdə tətbiq edilməsinə imkan verəcək, xarici mütəxəssislərlə təcrübə və fikir mübadiləsini gücləndirməyə şərait yaradacaq. Bundan əlavə, imzalanmış saziş Milli Onkologiya Mərkəzində onkoloji xəstələrə göstərilən xidmətlərin yüksək səviyyəsinin bu sahədə dünyanın digər aparıcı klinikaları və şirkətləri tərəfindən etiraf olunmasını təsdiq edir. Azərbaycan Onkologiya Mərkəzinə tədris-sınaq mərkəzi statusu verilməsi ilk dəfə deyil. Belə ki, 2014-cü ilin oktyabr ayında Milli Onkologiya Mərkəzi ilə Amerikanın bədxassəli şişlərin radioterapiyası üçün müasir texnologiyaları layihələşdirən və istehsal edən "Varian Medikal Sistem" şirkəti arasında əməkdaşlıq haqqında saziş imzalanıb və beləliklə, Milli Onkologiya Mərkəzi rəsmən referens-mərkəz statusu alıb. Daha sonra, 2015-ci ilin noyabr ayında Azərbaycan Milli Onkologiya Mərkəzi ilə M.D.Anderson adına Onkoloji Mərkəz (MD Anderson Cancer Center, ABŞ) arasında uzunmüddətli əməkdaşlıq haqqında müqavilə imzalanıb".

Ə.Əliyevin sözlərinə görə, beynəlxalq tədris-sınaq mərkəzi statusu yalnız ən müasir tibbi avadanlıqla təchiz edilmiş, xəstələrin diaqnostikası və müalicəsi sahəsində zəngin təcrübəyə malik yüksəkixtisaslı mütəxəssisləri olan klinikalara verilir .

Professor Əziz Əliyev sonda deyib: "Dövlət başçısının diqqəti və qayğısı sayəsində hazırda bizim Mərkəz ən yeni tibbi texnika ilə, o cümlədən mobil diaqnostika kompleksi ilə təchiz olunub, onkoloji xəstələrin şiş əleyhinə preparatlarla təmin edilməsi problemi aradan qaldırılıb. Bu gün zəngin maddi-texniki bazaya və güclü kadr potensialına malik olan Milli Onkologiya Mərkəzi dünyanın aparıcı onkoloji mərkəzləri ilə bir sıraya qoymaq olar. Mərkəzin əməkdaşları onkoloji xəstələrə yüksəkkeyfiyyətli xidmətlər göstərir, bədxassəli şişlərin erkən diaqnostikasını, belə xəstələrin müasir cərrahi üsullarla, şüa terapiyası və dərmanlarla müalicəsini həyata keçirir, mövcud müalicə metodlarının daha da təkmilləşdirilməsi məqsədilə genişmiqyaslı elmi araşdırmalar aparırlar. Bütün bunlar Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda uğurla həyata keçirilən, hərtərəfli düşünülmüş sosialyönümlü siyasətin nəticəsidir. Bu siyasət sayəsində ölkədə ən müasir tələblərə cavab verən səhiyyə infrastrukturunun yaradılması, yeni xəstəxanalar tikilməsi, mövcud tibb müəssisələrinin yenidən qurulması prosesləri geniş vüsət alıb".

## Sevinc Fətəliyeva: Dünyada baş verən münaqişələrdə uşaqların qətl obyektinə çevrilmələri qəbuledilməzdir



Dünyada baş verən münaqişələrdə uşaqların zorakılıq və qətl obyektinə çevrilmələri qəbuledilməzdir. AZƏRTAC xəbər verir ki, bunu Milli Məclisin beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsi sədrinin müavini Sevinc Fətəliyeva oktyabrın 19-da "Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi zamanı əsir və girov götürülmüş, itkin düşmüş şəxslərin hüquqlarının müdafiəsi beynəlxalq humanitar hüquq kontekstində" mövzusunda keçirilən konfransda deyib.

S.Fətəliyevanın sözlərinə görə, hazırda Azərbaycanda hər gün erməni silahlıları tərəfindən atəşə tutulan məktəblər var. Onun sözlərinə görə, hər gün həmin məktəblərə gedən uşaqlar risk altındadırlar. Komitə sədrinin müavini bildirib ki, uşaqların döyüşçü kimi müharibələrdə iştiraklarının qarşısının alınması bu sahədə fəaliyyət göstərən təşkilatların əsas məqsədlərindən birincisidir. O deyib: "İkinci əsas vəzifə postmünaqişə dövründə uşaqların cəmiyyətə inteqrasiyası, üçüncüsü isə münaqişə qurbanı olan uşaqların hüquqlarının qorunması ilə bağlıdır".

## "Rusiya Ermənistana ona görə silah verir ki, onu nəzarəti altında saxlasın"

"Ermənistan müstəqil ölkə deyil ki, müstəqil siyasət yürütsün. Ermənistan Rusiyanın planlarını Cənubi Qafqazda reallaşdırmaq üçün son vasitədir". Bu sözləri SİA-ya açıqlamasında millət vəkili Azər Badamov deyib. Onun sözlərinə görə, Rusiya Ermənistana ona görə silah verir ki, onu nəzarətdə saxlasın: "Buradan belə çıxır ki, Rusiyanın Ermənistana silah verməsi heç də müharibənin qızışdırması məqsədi ilə etmir. Çünki, Rusiya Azərbaycanın hərbi gücündən xəbərdardır və əgər müharibə baş verərsə ermənilər Azərbaycanın hərbi potensialı qarşısında aciz qalacaqlar. Biz məlum aprel döyüşlərində bunun bir daha şahidi olduq. Bu döyüşlərdə vəziyyətin mürəkkəbləşdiyini görən Sarkisyan müharibəni dayandırmaq üçün Rusiya prezidentin yanına getmişdi. Düşünürəm ki, Ermənistana silah verməkdə Rusiyanın yeganə məqsədi Cənubi Qafqaz regionunda gərginliyin uzun müddət saxlamaq istəyidir. Əgər müharibə baş verərsə, Rusiya Ermənistana hərbi dəstək verməyəcək. Biz bunu uzaq şərqdə baş verən müharibələr də görmüşük. Əgər Sarkisyan və onun ətrafı bunu vaxtında dərk etsə, işğala son qoyar, günahsız itkilərin qarşısı alınar, regionda sabitlik bərpa olunar və bununla da Ermənistan öz iqtisadiyyatını normal inkişaf etdirmək imkanını əldə edər"

# Azərbaycan islam həmrəyliyi ideyalarına sadiq olduğunu bir daha bəyan edir





***Bu gün müstəqil Azərbaycanın beynəlxalq aləmdə iqtisadi və siyasi mövqeyini daha da möhkəmləndirməsi, beynəlxalq qurumların hesabatlarında islahatçı ölkə kimi yer tutması, dünyanın nüfuzlu təşkilatlarının ölkəmizin mövqeyini dəstəkləyən qərar və qətnamələr qəbul etməsi ölkəmizin seçdiyi yolun düzgün olduğunu təsdiqləyir. Bu gün Azərbaycan bütün dünyada demokratik, qüdrətli və öz sözünü deməyə qadir olan ölkə kimi tanınır.***

Azərbaycan Prezidenti Cənab İlham Əliyevin rəhbərliyi ilə reallaşdırılan ümummilli inkişaf strategiyası hər bir sahənin paralel inkişafını ən yüksək səviyyədə təmin edib və bu, davam etməkdədir. Cabitlik adası kimi tanınan Azərbaycan inamlı inkişafını davam etdirir, ölkəmiz sülh və əmin-amanlıq şəraitində yaşayır. "Ölkəmizdə sabitliyin mənbəyi xalqımızın iradəsidir, xalqımızın seçimidir"- deyən İlham Əliyev bu gün ölkəmizin dünya miqyasında sabitliyi ilə seçilən ölkələrdən birinə çevrildiyini bildirib. Belə bir ölkə multikultural və tolerant dövlət kimi də tanınır. Tarixi İpək Yolunda yerləşən Azərbaycan ayrı-ayrı millətlərin və konfessiyaların nümayəndələrinin sülh, əmin-amanlıq, qarşılıqlı anlaşma və dialoq şəraitində yaşadığı diyardır və ölkəmizdə multikulturalizm alternativi olmayan həyat tərzinə çevrilib. Təsadüfi deyil ki, dünya dövlətləri Azərbaycanın bu sahədə öz təcrübəsini yaymasında maraqlıdır. Azərbaycan yüksək dəyərlərə sahib olan multikultural cəmiyyətdir. Azərbaycan əhalisinin 96 faizi müsəlmandır. Ölkəmizdə müsəlmanlar, xristianlar, yəhudilər, ümumiyyətlə, bütün dini konfessiyaların nümayəndələri sülh və əmin-amanlıq şəraitində birgə yaşayırlar. Bu gün Azərbaycanda xristianlığın ayrı-ayrı cərəyanlarının icmaları sərbəst şəkildə fəaliyyət göstərir. Azərbaycanda 7 sinaqoq, 4 gürcü kilsəsi fəaliyyətdədir. Hətta Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünə baxmayaraq, Bakıda erməni kilsəsi qorunub saxlanılır və bu gün də fəaliyyət göstərir. Təkcə elə bu fakt xalqımızın tolerantlığının bariz göstəricisidir.

## "İSLAM HƏMRƏYLİYİ İLİ" ÇƏRÇİVƏSİNDƏ AZƏRBAYCAN DOSTLUĞUN MÖHKƏMLƏNMƏSİNƏ, İNSANİ DƏYƏRLƏRƏ, SÜLH VƏ ƏMIN-AMANLIĞA, BİRGƏYAŞAYIŞA ÖZ TÖHFƏLƏRİNİ VERİR

Bütün dünyada, eləcə də, islam dünyasında böyük hörmətə, nüfuza malik olan Azərbaycan prinsipial və ədalətli mövqeyi ilə seçilir. Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə 2017-ci il Azərbaycanda "İslam Həmrəyliyi İli" elan olması islam dünyasının bir parçası olan Azərbaycan il ərizində dostluğun möhkəmlənməsinə, insani dəyərlərə, sülh və əmin-amanlığa, birgəyaşayışa öz töhfələrini verərək, sülsevər siyasətini bir daha dünyaya bəyan edib. Dinlə bağlı sərt qadağaların mövcud olduğu Sovet dövrü Azərbaycanda cəmi 17 məscid fəaliyyət göstərdiyi halda, hazırda onların sayı 2000-i ötüb keçib. Ölkəmizin paytaxtında Cənubi Qafqazın ən möhtəşəm məbədi Heydər Məscidi inşa edilib. Bütün bu və ya digər amillərlə yanaşı, Azərbaycan İslam Əməkdaşlıq Təşkilatının, İSESKO-nun, həmçinin, müsəlman ölkələrini birləşdirən digər mötəbər qurumların üzvü seçilib. Azərbaycan beynəlxalq təşkilatlarda söz sahibi və yüksək imicə malik dövlətdir.

## MÜSƏLMAN İNTİBAHINDA MÜHÜM ROL OYNAYAN AZƏRBAYCAN VƏ ÖZBƏKİSTAN ŞƏRQLƏ QƏRB ARASINDA BİRLƏŞDİRİCİ KÖRPÜ ROLUNU OYNAYIB

"İslam Həmrəyliyi İli" çərçivəsində Azərbaycanda və digər ölkələrdə tədbirlər keçirilib. Bu tədbirlərin davamı olaraq, bu günlərdə Daşkənddə "İslam həmrəyliyi Özbəkistan-Azərbaycan dostluğu timsalında" mövzusunda beynəlxalq konfrans keçirilib. Bu, Azərbaycanın islam həmrəyliyi ideyalarına, o cümlədən, mədəniyyətlərarası dialoq ənənələrinə sadiq olduğunu sübut edir və bu dövlətlər arasında əlaqələrin möhkəmlənməsində, qaynaqlanır. Təbii ki, Özbəkistan da islam dünyasının bir hissəsi kimi islam sivilizasiyasının inkişafına öz töhfəsini verib. Daşkənd, Səmərqənd, Buxara və Xivə şəhərləri islam mədəniyyətinin mərkəzləri kimi məşhurdur. Özbəkistanın İmam Buxari, Maturidi, Termezi kimi məşhur şəxsiyyətləri olub və onları bütün dünyada tanıyırlar. Hazırda Özbəkistanda 130 xalq və millətin, 16 konfessiyanın nümayəndələri sabitlik və əmin-amanlıq şəraitində yaşayırlar.

İslam həmrəyliyi bu gün islam dünyası qarşısında duran mühüm vəzifələrdən olduğundan, bu bütün dünyada harmoniyanın və dinc yanaşı yaşamağın mühüm şərtlərindəndir. Müsəlman intibahında mühüm rol oynayan Azərbaycan və Özbəkistan Şərqlə Qərb arasında birləşdirici körpü rolunu oynamış və bu, davam etməkdədir. Azərbaycan Prezidenti Cənab İlham Əliyevin konfrans iştirakçılarına ünvanladığı müraciətdə qeyd etdiyi kimi, ölkələrimiz islam mədəniyyətinin və dünya mədəni-tarixi irsinin mərkəzi sayılır. Müraciətdə qeyd olunur ki, bu gün tolerantlıq və multikulturalizm kimi tarixi ənənələrə sadiq qalan dövlətlərimiz öz xarici siyasətlərində islam dünyası ilə və başqa dövlətlərlə münasibətlərin möhkəmlənməsinə eyni səviyyədə mühüm əhəmiyyət verir. Daha sonra deyilir ki, bu gün dünyada insan sivilizasiyası üçün real təhlükə sayılan ziddiyyətli proseslər və hadisələr baş verir. Bəşəriyyət yalnız birgə səylərlə bu təhlükələrə qarşı dura bilər: "Bizi sevindirir ki, Azərbaycanda "İslam Həmrəyliyi İli" elan edilən ildə xalqlarımız arasında olan dostluq münasibətləri dövlətlərimizin islam həmrəyliyi və dinlərarası dialoqun tərəfdarı olduğuna bir daha sübutdur". Bu gün tolerantlığın məkanı, multikultural ənənələrə, islam dininə sadiq müstəqil Azərbaycan mədəniyyətlərin dialoqunun inkişafına, mədəni müxtəlifliyin qorunub-saxlanması və sivilizasiyalar arasındakı qarşılıqlı münasibətlərin tənzimlənməsinə yönəlmiş mühüm layihələrin, mötəbər forumların gerçəkləşdirilməsi sahəsində zəngin təcrübəyə malikdir. Ölkəmizdə keçirilən "IV İslam Həmrəyliyi Oyunları" islam dünyasına böyük töhfə oldu. Bu gün multikultural münasibətlərin davamlılığı, onun bugünkü inkişafı, bilavasitə, dövlət dəstəyindən qaynaqlanır. Dövlət başçısı İlham Əliyevin qeyd etdiyi kimi, biz nəinki ölkə daxilində millətlərarası və dinlərarası münasibətləri ən yüksək səviyyədə tənzimləyirik, həll edirik, biz dünyaya nümunə də göstəririk: "Bax, belə inkişaf etmək lazımdır. Multikulturalizm alternativsiz bir hərəkat olmalıdır. Hesab edirəm ki, biz bu nümunəni göstərərək, başqa yerlərə də öz təsir imkanlarımızı genişləndiririk"

## BƏZİ ÖLKƏLƏRDƏ İSLAMOFOBİYANIN YAYILMASI İSLAM DÜNYASINDA HƏMRƏYLİYİN ZƏRURİLİYİNİ BİR DAHA ƏYANİ SURƏTDƏ GÖSTƏRİR

Konfransda Milli Məclisin İctimai Birliklər və Dini Qurumlar Komitəsinin sədri Siyavuş Novruzov çıxışı zamanı diqqətə çatdırıb ki, Azərbaycan Prezidenti İlham Əliyev 2016-cı ili ölkəmizdə "Multikulturalizm İli", 2017-ci ili isə "İslam Həmrəyliyi İli" elan edib: "Xalqımızın tarixi keçmişindən qalan tolerantlıq və multikulturalizm prinsipləri ölkəmizin qanunvericiliyində də öz əksini tapıb. Belə ki, parlament "Dini etiqad azadlığı haqqında", "Dini ekstremizmə qarşı mübarizə haqqında" qanunlar qəbul edib. Parlamentin komitə sədri vurğulayıb ki, xalqlarımızın islam sivilizasiyasına verdiyi töhfəni dahi Azərbaycan şairi Nizami Gəncəvinin, Azərbaycan alimi Nəsirəddin Tusinin, dahi özbək şairi Əlişir Nəvainin, məşhur alim və dövlət xadimi Mirzə Uluqbəyin yaradıcılığında görmək olar. Bu yaxınlığın nəticəsidir ki, Bakıda Əlişir Nəvainin, Daşkəndə Nizami Gəncəvinin abidələri qoyulub.

Müasir dünyada baş verən siyasi proseslər, müsəlman ölkələrindəki müharibə və münaqişələr, bəzi ölkələrdə islamofobiyanın yayılması islam dünyasında həmrəyliyin zəruriliyini bir daha əyani surətdə göstərir. Belə şəraitdə Azərbaycan bütün dünyada islam həmrəyliyinin təmin edilməsinin tərəfdarı kimi çıxış edir.

Bu gün Azərbaycan müsəlman dünyası ilə əməkdaşlıq əlaqələrini daha da genişləndirib. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı çıxışında bildirib ki, Azərbaycan Prezidenti İlham Əliyevin bu ili ölkəmizdə "İslam Həmrəyliyi İli" elan etməsi bizi fərəhləndirməklə yanaşı, dövlətimizin başçısının islam birliyinə həssas münasibətini də göstərir. Ölkəmizdə ayrı-ayrı dinlərin nümayəndələri sülh şəraitində yaşayırlar. Bakıda Beynəlxalq Multikulturalizm Mərkəzi uğurla fəaliyyət göstərir. Azərbaycanda milli-mənəvi dəyərlərə hörmət edilir.

Bütün islam dövlətləri ilə sıx əlaqədə ola Azərbaycan islam həmrəyliyi ideyalarına və mədəniyyətlərarası dialoq ənənələrinə sadiqdir. Azərbaycan öz əqidəsinə, milli dəyərlərinə sadiq bir dövlətdir. Bu baxımdan da, təmsil olunduğu beynəlxalq forum və təşkilatlarda islam dünyasını, müsəlmanları dəstəkləyir, güclü tərəfdaşlıq əlaqələrini genişləndirir. Bəli, Azərbaycan islami dəyərlərə, islam dininə bağlı dövlətdir. Bunun nəticəsidir ki, müasir dövrümüzdə ölkəmizdə islami dəyərlər, multikulturalizm məktəbi və tolerantlıq yeni dövrünü yaşayır.

***Nəzakət ƏLƏDDİNQIZI***





# Buluddağıdan toplardan “Sakarya” və “ Smerc” lərə qədər





***Yazıçı Aqil Abbasın ssenarisi əsasında çəkilən “Dolu” filmində bir epizod var: Əsgərlərimiz düşmənlə meşəlik ərazidə qeyri-bərabər döyüşə girirlər. Ermənі səngərlərində gizlənən tank və digər zirehli texnikalar biz tərəfə atəş açaaça tez-tez mövqelərini dəyişirlər. Həmin an filmin əsas qəhrəmanları “Drakon” və “Pələng” arasındakı dialoq diqqətdən yayınmır: “Bu BTR-lərdən 4-5-i bizdə olsaydı Əsgəranı çoxdan şumlamışdıq”.***

**Bu gün gərək**
**Hər anımız Vətən! - desin!**

Bəli, ötən əsrin 90-cı illərində vətənpərvərliyimiz, milli ruhumuz, düşmənə nifrətimiz aşıb-daşsa da, vahid komandanlıqda birləşən ordumuz, silah-sursat və texnikamız yox idi. Həmin vaxt Naxçıvanda yaşananlar heç də Dağlıq Qarabağ cəbhəsində yaşananlardan geri qalmırdı. İşğalçı Ermənistan sərhəd boyu hücuma keçərək qədim diyarı işğal və məhv etmək üçün bütün qüvvələrini səfərbər etmişdi. Lakin yenicə Moskvadan



*Sahil Tahirli*

Naxçıvana qayıdan ulu öndər Heydər Əliyev bütün naxçıvanlıları öz ətrafında birləşdirdi. Əhalinin ümummilli liderə böyük etimad və inamı hər şeyi kökündən dəyişdi. İnsanlar süngü-bıçaqla, ov tüfəngi ilə doğma torpağın müdafiəsinə qalxdılar. Heydər Əliyev Naxçıvanı, Naxçıvan Heydər Əliyevi qorudu.

70 il ürəyimizdə dalğalanan üçrəngli bayrağımız başımızın üstünə qalxdı. Dövlət müstəqilliyimizin də ilk addımları atıldı və həmişə arzusunda olduğumuz ilk milli ordu qürurumuz - Naxçıvanda ilk milli hərbi hissə yaradıldı. Və o zaman bizə böyük ruh verən ilk hərbi parad da məhz Naxçıvanda keçirildi. Canlı qüvvə və texnika sarıdan çox zəif olsaq da, bu paradda milli ruhumuz bir daha coşurdu. “Ordumuz olsa idi ermənilər bir qarış torpağımızı da işğal edə bilməzdi” prinsipinin nə qədər məntiqli olduğuna bir daha şahidlik edirdik...

**Qılıncımız, qalxanımız**
**Vətən! - desin**

Düz 25 il sonra səhər tezdən, tarixi bir gündə - 18 oktyabr Dövlət Müstəqilliyi Günündə yuxudan qalxıb böyük həyəcanla hazırlaşıram. Çünki bir azdan vaxtilə ulu öndərin Naxçıvanda yaratdığı ilk milli hərbi hissənin 25-ci ildönümü qeyd ediləcək, möhtəşəm hərbi parad keçiriləcəkdi.

Budur, Naxçıvan şəhərinin Heydər Əliyev prospektindən Salvartı zirvəsinə uzanan yol sanki Naxçıvan dağlarının əzəmətindən, vüqarından güc alaraq dalğalanır. Böyük izdihamın gözü sıra meydanında dayanan aslan ürəkli əsgər və zabitlərimizdədi. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov, Müdafiə naziri Zakir Həsənov zabit və əsgərlərimizi hərarətlə salamlayır, onları əlamətdar bayramlar münasibəti ilə təbrik edir. Çıxışlardan sonra keçirilən təlimlərdə döyüş qabiliyyətini əhəmiyyətli dərəcədə artıran şəxsi heyət nizami addımlarla irəlilədikcə ayaq səsləri ürəklərimizin səsinə qoşulur. Sanki o an ətrafdakı hər kəsin ürəyindən əsgər olmaq, səngərdə dayanmaq keçir.

Heydər Əliyev adına hərbi liseyin kursantları, xüsusi təyinatlılar, kəşfiyyatçılar, sərhədçilər, motoatıcılar, rabitəçilər, qorxmaz şahinlərimiz bir-bir bizi salamlayır...

Buluddağıdan topların, ov silahlarının dövrü çoxdan bitib... Budur, Əlahiddə Ümumqoşun Ordunun arsenalında olan ən müasir silah və texnikalar gözümüzün önündən keçir. Onların səsi Ağrıdağdan Haçadağa, Haçadağdan Murova qədər yayılıb. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Naxçıvan Muxtar Respublikasındakı Əlahiddə Ümumqoşun Ordusunun birləşmə və hissələrinin 2 min nəfərə yaxın şəxsi heyəti, 160-dan çox hərbi texnika və silah sistemləri, o cümlədən 10-dan artıq döyüş vertolyotu və təyyarəsi hərbi paradı izləyən minlərlə muxtar respublika sakininin qəlbini riqqətə gətirirdi.




Ordumuzun mexanikləşdirilmiş, motoatıcı, xüsusi təyinatlı, kəşfiyyat, dağ atıcı, tank, reaktiv artilleriya, hava hücumundan müdafiə və rabitə bölmələrinin, Daxili Qoşunların “Naxçıvan” Əlahiddə Əməliyyat Briqadasının, “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasının, Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Mülki-müdafiə alayının şəxsi heyəti nizami addımlarla yeri-göyü titrədirdilər.

Nə yoxdu, tank əleyhinə idarə olunan “SPAYK” raket kompleksləri, Azərbaycanda istehsal olunan və beynəlxalq sərgilərdə böyük maraqla qarşılanan “Marauder” zirehli döyüş maşınları, pilotsuz uçuş aparatları, reaktiv artilleriya kompleksləri, minaatanlar, tank əleyhinə toplar, “Qrad”lar, “Sakarya”, “Qasırğa”, “Smerc” yaylım atəşli reaktiv sistemləri, döyüş maşınları, zenit raket kompleksləri, zirehli transportyorlar, özüyeriyən tank əleyhinə komplekslər, müasir tanklar və özüyeriyən artilleriya qurğuları...

“SU-25” döyüş təyyarələri, “Mİ-17-1V” və “Mİ-35M” vertolyotları ulu Naxçıvan səmasını fəth edərək Azərbaycan Silahlı Qüvvələrinin muxtar respublikadakı birləşmə və hissələrin güc və qüdrətini bir daha nümayiş etdirdilər.

Həmin gün həm də Əlahiddə Ümumqoşun Ordusunun yeni Təlim-Tədris Mərkəzinin istifadəyə verilməsi ilə əlamətdar oldu.

Prezidentimiz, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin dediyi kimi: “Naxçıvan ordusu bu gün güclü ordudur və Naxçıvan Ordusunun hərbi texnika ilə təminatı ən yüksək səviyyədə təşkil edilir.”

**Ölənlərin əvəzinə**
**Qalanımız Vətən! - desin**

Deyirlər torpaq su ilə suvarılanda palçıq, qan ilə suvarılanda VƏTƏN olur. Bu gün üstündə gəzdiyimiz bu vətəni öz qanları bahasına qoruyan şəhidlərimizin ruhu qarşısında baş əyirik. Bu torpağı, bu vətəni bir də ona görə sevirik ki, o bizə şəhidlərimizin əmanətidir. Biz onlarla yaşayırıq, biz onlarla yaşadırıq, biz onlarla yaşlanırıq... Böyük türk şairi Məhmət Akifin təbirincə desək :

**Basdığın yerləri “torpaq” deyərək keçmə, tanı:**
**Düşün altındakı minlərlə kəfənsiz yatanı!!!**

Müdriklər deyirlər ki, boş zaman yoxdu, boşa keçirilmiş zaman var. Bügünkü parad bir daha sübut etdi ki, Naxçıvanda ötən 25 ilin bir anı belə boşa keçirilməyib, qədim diyar başdan-başa tikilibqurulmaqla, yenilənməklə bərabər, həm də gücünə güc qatıb. Əlincə yenilməzliyi qazanıb, tarixinin ən mübariz ordusuna sahib olub.

Düzdür, biz həmişə qurub-yaratmışıq, tikmişik, amma dəfələrlə işğalçılar Naxçıvanı yerlə-yeksan edib, külə döndəriblər...

Deyirlər ki, QƏLƏBƏ - qələbə mənimdir deyib Vətən üçün qan tökənindir.

İnanın, bugünkü paradda şəxsi heyətə və döyüş texnikalarına “dur” komandası verilməsəydi, onlar qədim şəhərimizə - İrəvana qədər gedib çıxardılar. Bax, budur iş, budur yaratmaq eşqi, budur vətənpərvərliyin Naxçıvan nümunəsi.

**Vətən! - desin**
**Qəlbimizin hər duyğusu,**
**hər vurğusu Vətən! - desin.**

Az qalıb, çox az qalıb. Bu gün parada çıxan zirehli texnikaların səsi Naxçıvana çox yaxın olan Şuşada, Kəlbəcərdə, Xankəndidə, Laçında da eşidildi. Çox keçməz, özləri də orda görünərlər. Təki qəlbimizin hər vurğusu vətən desin. Və birdə hər birimiz özümüzə əsgər forması alıb onu geyinəcəyimiz günü səbirsizliklə gözləyək...

**Fərqi yoxdur, harda olaq,**
**Zamanımız, məkanımız**
**Vətən! - desin...**

# Yeni Azərbaycan Partiyası böyük nüfuza malik olan qüdrətli siyasi qüvvədir

## *Yeni Azərbaycan Partiyası Qəbələ rayon təşkilatının IX konfransı*

***Dünən Yeni Azərbaycan Partiyası Qəbələ rayon təşkilatının IX konfransı keçirilib. Konfransdan əvvəl qonaqlar və konfrans nümayəndələri Ulu Öndər Heydər Əliyevin Qəbələ şəhərinin mərkəzində yerləşən abidəsini ziyarət edərək, önünə gül dəstələri düzüblər. Sonra konfransın rəsmi hissəsi "Qafqaz-Resort" otelinin iclas zalında davam etdirilib. Konfrans iştirakçıları partiyanın yaradıcısı, müasir müstəqil Azərbaycanın banisi, Ümummilli Lider Heydər Əliyevin və vəfat etmiş partiya üzvlərinin xatirələrini bir dəqiqəlik sükutla yad ediblər.***






Tədbiri giriş sözü ilə Yeni Azərbaycan Partiyası Qəbələ rayon təşkilatının sədri Abil Ağasəfov açaraq, ötən dövr ərzində rayon təşkilatının gördüyü işlərə dair hesabat məruzəsi ilə çıxış edib. "Hesabat dövründə YAP Qəbələ rayon təşkilatı Ümummilli Lider Heydər Əliyevin ideyalarını, ölkə Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri Cənab İlham Əliyevin proqram xarakterli nitqlərini, partiyanın İcra Katibliyinin tövsiyə və tapşırıqlarından irəli gələn vəzifələri əsas fəaliyyət istiqaməti kimi daim rəhbər tutub".



Sonra nəzarət-təftiş qrupunun sədri Vüqar Hüseynovun hesabatı dinlənilib.

Konfransda Milli Məclisin deputatı, Respublika Ağsaqqallar Şurasının sədri Fəttah Heydərov çıxış edərək bildirib ki, Ulu Öndər Heydər Əliyev müstəqil Azərbaycanın memarı olduğu kimi, eyni zamanda, Yeni Azərbaycan Partiyasının qurucusudur: "Ümummilli Liderin qurucusu olduğu və ölkə Prezidenti İlham Əliyevin müdrik və qətiyyətli fəaliyyəti ilə güclənən Yeni Azərbaycan Partiyası bu gün xalq tərəfindən dəstəklənən, böyük nüfuza malik olan qüdrətli siyasi qüvvədir. Bu gün ölkənin hər yerində olduğu kimi, Qəbələdə də Ulu Öndər Heydər Əliyevin siyasi kursunu yaşadan Yeni Azərbaycan Partiyasına rayon sakinlərinin inamı olduqca böyükdür".

Konfransda YAP Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə çıxış edərək, partiyanın keçdiyi şanlı tarixi yoldan, Ulu Öndər Heydər Əliyevin partiyaya rəhbərlik illərindən, Ulu Öndər xalqın tələbi ilə ölkə Prezidenti seçildikdən sonra respublikada görülən işlərdən, hazırda Möhtərəm Prezidentimiz Cənab İlham Əliyevin həyata keçirdiyi daxili və xarici siyasətin böyük uğurlarından söz açıb: "Yeni Azərbaycan Partiyası Azərbaycan dövlətçiliyinin ən ağır sınaqlar qarşısında qaldığı bir zamanda xalqın istək və arzularının nəticəsi olaraq, tarixi zərurətdən yarandı. Yarandığı ilk gündən YAP ölkəmizin siyasi səhnəsində uğurla fəaliyyət göstərərək, milli müstəqilliyimizin qorunmasına, dövlətçiliyimizin möhkəmləndirilməsinə, iqtisadiyyatımızın inkişaf etdirilməsinə özünün layiqli töhfələrini verib. Məhz Ulu Öndər Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində Azərbaycan dövləti parçalanmaqdan, anarxiya, xaos və tənəzzüldən xilas olaraq, bugünkü yüksək inkişaf səviyyəsinə gəlib çıxıb".

Konfransda Qəbələ rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev YAP-ın və müasir Azərbaycan dövlətinin qurucusu, ölkəmizi məhv olmaq təhlükəsindən xilas etmiş Ulu Öndərin misilsiz tarixi xidmətlərindən, partiyanın böyük siyasi güc mərkəzi kimi cəmiyyətimizdəki mövqeyindən bəhs edib. S.Abdullayev bildirib ki, Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulan inkişaf strategiyası bu gün Prezident İlham Əliyev tərəfindən uğurla və yüksək səviyyədə davam etdirilir. Çıxışında partiyanın rayon təşkilatının fəaliyyətini yüksək qiymətləndirən S.Abdullayev YAP-ın cəmiyyətdə aparıcı rolundan danışaraq, Yeni Azərbaycan Partiyasının Sədri, ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə qazanılmış uğurlardan bəhs edib: "Azərbaycanın hazırda ən yüksək zirvələri fəth etməsi Ulu Öönder Heydər Əliyevin dahiyanə uzaqgörənliklə müəyyənləşdirdiyi siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin nəticəsidir. Bu gün Azərbaycanın hər bölgəsi, o cümlədən, Qəbələ rayonu tərəqqi dövrünü yaşayır."

YAP Qəbələ rayon təşkilatının qadınlar şurasının sədri Arifə Bayramova, rayon təşkilatı gənclər birliyinin sədri Namiq Ağayev, Rayon Otelçilik və Peşə Tədris Mərkəzinin müəllimi Reyhan Məmmədova, YAP Mərkəzi Aparatının məsul işçisi Emil Abasov və başqaları çıxış edərək, ötən konfransdan keçən müddətdə YAP Qəbələ rayon təşkilatı tərəfindən görülən tədbirlər barədə məlumat verərək, təşkilatın fəaliyyətini qənaətbəxş qiymətləndiriblər.

Çıxışlardan sonra təşkilati məsələyə baxılıb. 45 nəfərdən ibarət şura, 15 nəfərdən ibərət idarə heyəti və 7 nəfərdən ibarət nəzarət-təftiş qrupunun üzvləri seçilib. Abil Ağasəfov yenidən YAP Qəbələ rayon təşkilatının sədri seçilib. Fəxri Soltanov və Elçin Tağıyev sədrin müavinləri seçiliblər. Konfransın yekununda YAP sıralarına qəbul olunan bir qrup gəncə partiyanın üzvlük vəsiqələri təqdim edilib.

**RƏFİQƏ**






# YAP xalqın istəyi ilə yaranan partiyadır

## *Qaradağda YAP-ın yaradılmasının 25-ci ildönümü münasibətilə növbəti tədbir keçirilib*

***Dünən Yeni Azərbaycan Partiyasının yaradılmasının 25-ci ildönümü münasibətilə YAP Qaradağ rayon təşkilatı növbəti tədbirini Qobustan qəsəbəsi, SOCAR Təlim, Tədris Sertifikatlaşdırma İdarəsi Qobustan Regional Təlim Mərkəzi üzrə ərazi ilk partiya təşkilatında keçirib. Tədbirdə çıxış edən YAP Qaradağ rayon təşkilatının sədri, partiyanın Siyasi Şurasının üzvü, millət vəkili Aydın Hüseynov əvvəlcə yubiley münasibətilə tədbir iştirakçılarını təbrik edib.***

YAP-ın yarandığı mürəkkəb şərait, ötən 25 ildə keçdiyi inkişaf yolu və əldə etdiyi uğurlar barədə geniş məlumat verən millət vəkili bildirib ki, YAP Azərbaycanın müstəqilliyinin ilk illərində yaşanmış mürəkkəb hadisələr fonunda xalqımızı və dövlətimizi xilas etmək, Azərbaycanı inkişaf etdirmək missiyası ilə yaradılıb. Ümummilli Liderimiz, böyük dövlət xadimi Heydər Əliyevin rəhbərliyi ilə yaradılan Yeni Azərbaycan Partiyası Azərbaycan dövlətçiliyinin xilası və inkişafında müstəsna xidmətlər göstərib: "Yeni Azərbaycan Partiyası iqtidarda olduğu müddətdə Azərbaycanın siyasi və iqtisadi müstəqilliyi daha da möhkəmlənib, ölkəmizin beynəlxalq aləmdə mövqeyi güclənib. Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri Cənab İlham Əliyevin həyata keçirdiyi siyasət ölkəmizə böyük nüfuz qazandırıb və Azərbaycan regionun lider dövlətinə çevrilib".

Görüşdə "SƏS" qəzetinin baş redaktoru Bəhruz Quliyev çıxış edərək, ölkəmizin ictimai-siyasi həyatında aparıcı rol oynayan YAP-nın keçdiyi 25 illik şərəfli yolundan danışıb. Bildirib ki, ictimai-siyasi proseslərin kifayət qədər mürəkkəb və keşməkeşli axarda cərəyan etdiyi bir vaxtda Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə yaranan YAP qısa müddətdə ölkənin gələcək taleyini müəyyənləşdirən və əsas siyasi qüvvəyə çevrilən təşkilat olub.

B.Quliyev onu da vurğulayıb ki, Azərbaycan Prezidenti Cənab İlham Əliyevin Sədri olduğu və bu gün 700 mindən çox insanı sıralarında birləşdirən YAP müstəqilliyimizin, demokratik-hüquqi-dünyəvi dövlətimizin möhkəmləndirilməsi və dayanıqlı sosial-iqtisadi inkişafın təmin olunması proseslərində daim yaxından iştirak edir.

Tədbirdə SOCAR Təlim, Tədris və Sertifikatlaşdırma İdarəsinin rəis müavinləri Dünyamalı Pənahov, Natiq Şərbətov, milli qəhrəman Yusif Əliyev adına 195 saylı tam orta məktəbin direktoru Hüseynli Laçın, Qobustan qəsəbəsi Ağsaqqallar Şurasının sədri Əliyusif Əliyev və başqaları Azərbaycan dövlətçiliyinin formalaşmasında, ictimai-siyasi sabitliyin bərqərar olmasında, ölkəmizin beynəlxalq aləmdə nüfuzunun artmasında Yeni Azərbaycan Partiyasının mühüm rolu və xidmətləri olduğunu bildirib və partiyanın gələcək fəaliyyətində uğurlar arzulayıblar.

**R.HÜSEYNOVA**

www.sesqazeti.az
facebook Ses Media Holding

# Erməni cəmiyyətində Rusiya əleyhinə fikirlər aşırı dərəcədə artıb





**Sirr ddeyil ki, rəsmi Yeravan hakimiyyətinin mövcud zamana qədər ayaq üstə qalmasına səbəb bu ölkənin Rusiyanın forpostu rolunda olmasıdır. Daha dəqiq desək, Serj Sarkisyan rejiminin "nəfəs borusunu", əsasən, Rusiya təmin edir. Lakin son dövrlər, xüsusilə, ötən ilin aprel müharibəsində Azərbaycan Ordusunun işğal altındakı torpaqlarının bir hissəsinin azad etməsindən sonra Rusiyadan növbəti ən müasir stanartlara aid silahlar alması və bu prosesin davamlı şəkildə reallaşdırılması erməni ictimai-siyasi və hərbi dairələrində ciddi narahatlıqlara səbəb olmaqdadır.**

Əbəs deyil ki, məhz həmin dövrlərdən başlayaraq, Ermənistan cəmiyyətində və mətbuatında anti-Rusiya çağırışları aşırı dərəcədə artıb. İstər hakimiyyətin, istərsə də müxalifətin bir sıra təmsilçiləri dolayısı, ya da açıq şəkildə Rusiyaya qarşı fikirlər səsləndirirlər. Əlbəttə, onsuz da, Rusiyadan asılı olan erməni ictimaiyyətinin bənzər səsküyləri Rusiyaya heç bir qorxu yaratmır. Çünki belə olmasaydı, Şimal ölkəsi hazırda Ermənistanın siyasi və sosial-iqtisadi həyatına birbaşa müdaxilə etməzdi. Yəni bu, onu göstərir ki, ermənilər nə qədər çığır-bağır salsalar belə, bu, Rusiyaya heç bir təsir göstərməyəcək. Əksinə, Rusiya Ermənistana qarşı mövcud siyasətini daha da sərtləşdirəcək.

## Ekspertlər baş verənləri regionda gedən geosiyasi proseslərin intensivləşməsi və Qərb dövlətlərindəki erməni diasporunun Sarkisyan hakimiyyətinə təzyiqi ilə izah edirlər

Misal üçün, erməni KİV-ləri və hakim rejimə müxalifətdə olan siyasi partiyalar Yeravanın Rusiyadan uzaqlaşaraq, qərbyönümlü siyasət yürütməsini və Ermənistanın Avrasiya İqtisadi İttifaqından çıxması tələbi ilə çıxış etməkdədirlər. Hətta bir müddət əvvəl, Ermənistan parlamentindəki müxalifət fraksiyası olan "YELK" Ermənistanın Avrasiya İqtisadi İttifaqından çıxması ilə bağlı parlamentdə layihə ilə çıxış etmişdi və bu layihə Ermənistan cəmiyyətində geniş müzakirələrə səbəb olmuşdu. Ekspertlər isə bunu regionda gedən geosiyasi proseslərin intensivləşməsi və Qərb dövlətlərindəki erməni diasporunun Sarkisyan hakimiyyətinə təzyiqi ilə izah edirlər.

Əslində, müxalif siyasətçilərinin anti-Rusiya mövqeyində durmalarının səbəbi tək bu deyil. Yəni digər amillər də var. Misal üçün, onlar, əsasən, Kremlin Ermənistanın daxili və xarici siyasətində dominat faktor kimi çıxış etməsinə qarşı çıxırlar. Çünki Ermənistan iqtisadiyyatını formalaşdıran strateji müəssisələrin çoxu Rusiya şirkətlərinin nəzarətləri altındadır.

## Levon-Ter Petrosyan: Sarkisyan-Koçaryan qarşıdurması güclənir

Ermənistanda yerləşən Rusiyanın hərbi bazası da narahat edən digər səbəblərdən biridir. Burada eləcə də psixoloji amil də var. Bu da yerli Ermənistan siyasətçiləri ilə Xankəndidən çıxan erməni siyasiləri arasında barışmaz qarşıdurmanın mövcud olmasıdır. Ermənistan siyasiləri ilə bunların başında Levon-Ter Petrosyan gəlir ki, onun da Sarkisyan-Koçaryan qruplaşması ilə ziddiyətləri fonunda Rusiya faktoru yenidən gündəmə gətirilir. Beləliklə, sözügedən faktor ölkədaxili çalxanmaları daha da şiddətləndirmiş olur. Baş verənlər isə, bir daha sübut edir ki, əgər erməni ictimaiyyəti nə qədər Rusiyada ayrılaraq, Qərbə doğru transfer olunmağa çalışsa, Şimalın məngənəsində daha çox sıxılıb qalacaqdır. Çünki bu siyasətin təməli belə qoyulub və Ermənistanı sürətlə məhvə doğru sürükləməkdədir.

**Rövşən RƏSULOV**



# Vaşinqtonda Ermənistan-Azərbaycan münaqişəsinə həsr edilmiş brifinq keçirilib

*Ceyms Uorlik: "Azərbaycanın suverenliyinə hörmət edilmədən münaqişənin tənzimlənməsi mümkün ola bilməz"*

**Oktyabrın 18-də ABŞ Senatının "Rassel" binasında "Dağlıq Qarabağda tammiqyaslı müharibəyə yol verilməməlidir: Birləşmiş Ştatların və ATƏT-in rolu" mövzusunda brifinq keçirilib. AZƏRTAC xəbər verir ki, tədbir Helsinki Komissiyası adı ilə də məşhur olan Avropada Təhlükəsizlik və Əməkdaşlıq Komissiyası tərəfindən təşkil edilib.**

Avropa və Mərkəzi Asiya üzrə "Beynəlxalq antiböhran qrupu" proqramının direktoru Maqdalena Qrono, Kentukki Universitetinin diplomatiya və münaqişələrin tənzimlənməsi üzrə professoru, 1999-2001-ci illərdə Minsk qrupunun amerikalı həmsədri olmuş səfir Kerri Kavano, Rusiyanın "Yeqorov, Puqinski, Afanasyev i partnyorı" hüquq firmasının siyasət məsələləri üzrə tərəfdaşı və böyük məsləhətçisi, 2013-2016-cı illərdə Minsk qrupunun amerikalı həmsədri olmuş səfir Ceyms Uorlik brifinqdə çıxış ediblər. Tədbirdə iştirakçılar Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tarixi, ATƏT-in Minsk qrupu vasitəsilə aparılan sülh danışıqlarının spesifikası, 2016-cı ildə baş vermiş dördgünlük aprel müharibəsi və münaqişənin tənzimlənməsi ilə bağlı ABŞ-ın siyasəti barədə danışıblar.

Moderator Aleks Tiyerski tədbiri açaraq Ermənistan-Azərbaycan münaqişəsi ətrafında yaranmış vəziyyət və ATƏT-in bu münaqişənin tənzimlənməsində vasitəçilik rolu barədə söhbət açıb. Sonra çıxış edən Maqdalena Krono qeyd edib ki, Azərbaycanın Dağlıq Qarabağ regionu dünyanın ən çox hərbiləşdirilmiş regionlarından biridir. Münaqişənin eskalasiyası tammiqyaslı müharibə həddinə çata və potensial baxımdan regiondakı ölkələri və digər ölkələri də bu müharibəyə cəlb edə bilər. O deyib ki, Minsk qrupunun həmsədrlər üçlüyü 1997-ci ildən danışıqlar prosesində fəal iştirak edir.

Beynəlxalq antiböhran qrupunun nümayəndəsinin çıxışında Ermənistan qoşunlarının Azərbaycanın işğal altındakı ərazilərindən dərhal çıxarılmasının tələb edildiyi BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi də qeyd olunub. Bildirilib ki, Azərbaycan üçün status-kvo qəbuledilməzdir və rəsmi Bakı artıq bir neçə ildir öz hərbi potensialını artırır. Dövlət büdcəsi Azərbaycanın hərbi büdcəsindən az olan Ermənistanın da aşağı tariflər üzrə silah aldığı diqqətə çatdırılıb. M.Krono vurğulayıb ki, silahlı münaqişənin potensial baxımdan eskalasiyası çox böyük humanitar nəticələrə gətirib çıxara bilər. Səfir Kerri Kavano qeyd edib ki, Dağlıq Qarabağ münaqişəsi artıq çoxdan bəri "dondurulmuş" münaqişə deyil. Son illərdə tərəflərin bu münaqişənin tənzimlənməsinə dair mövqeləri daha güzəştsiz olub, regiona çoxlu sayda silahların gətirilməsi vəziyyəti daha da mürəkkəbləşdirir, əməliyyatlar şiddətlənə bilər. Münaqişənin tənzimlənməsi ilə bağlı Ki-Uestdə və Kazanda xeyli irəliləyiş əldə edilsə də, səylər nəticəsiz oldu. Sonra çıxış edən səfir Ceyms Uorlik qeyd edib ki, tərəflərin münaqişənin tənzimlənməsinə dair mövqeləri çox da uzaqlaşmayıb.

Səfir Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinə dair ABŞ-ın siyasətinin əsas prinsiplərini müzakirə edərkən 2014-cü ilin mayında ATƏT-in Minsk qrupunun amerikalı həmsədri kimi Karneginin Beynəlxalq Sülh Fondunda özünün nitqinə istinad edib. O deyib ki, bu nizamlanmanın əsasını BMT-nin Nizamnaməsi və müvafiq sənədlər, habelə Helsinki Yekun Aktının əsas prinsipləri təşkil edir. Madrid prinsiplərinə əsaslanan altı element sülh sazişinin tərkib hissəsi olmalı və vahid paket kimi qəbul edilməlidir. Birinci element Dağlıq Qarabağa müvəqqəti status verilməsindən ibarətdir. Onun qəti hüquqi statusu gələcəkdə tərəflərin qarşılıqlı razılığı ilə öz iradələrini ifadə etmələri vasitəsilə müəyyən olunacaq. İkinci element nəzarət edilməyən keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin inzibati sərhədləri daxilindəki əraziyə müvəqqəti status verilməsini, bu müddətdə təhlükəsizliyin minimal qarantiyasını və özünüidarəni nəzərdə tutur. Üçüncü element ondan ibarətdir ki, Dağlıq Qarabağ ətrafındakı işğal edilmiş ərazilər Azərbaycanın nəzarəti altına qaytarılmalıdır. Çünki Azərbaycanın suverenliyinə hörmət edilmədən tənzimləmə mümkün ola bilməz. Dördüncü element Dağlıq Qarabağı Ermənistanla birləşdirən "Laçın dəhlizi"nin mövcud olmasını nəzərdə tutur. Bu dəhliz hərəkət etmək üçün kifayət qədər olmalı, lakin bütün Laçın rayonunu əhatə etməməlidir. Beşinci element məcburi köçkünlərə öz əvvəlki daimi yaşayış yerlərinə qayıtmaq hüququ verilməsindən ibarətdir. Nəhayət, altıncı element təhlükəsizliyə beynəlxalq qarantiyaları, o cümlədən sülhyaratma əməliyyatını nəzərdə tutur. Brifinqdə Azərbaycan və Ermənistan səfirliklərinin, analitik mərkəzlərin və ABŞ konqresmenlərinin ofislərinin nümayəndələri iştirak ediblər.

Xatırladaq ki, Azərbaycanın Dağlıq Qarabağ regionu və ona bitişik yeddi rayonu Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilib. Ermənistanın işğalçılıq siyasəti nəticəsində 1 milyondan çox azərbaycanlı öz torpaqlarından qovulub. 1993-cü ilin aprel-noyabr aylarında BMT Təhlükəsizlik Şurası Azərbaycan ərazilərinin işğalını pisləyən, Ermənistan silahlı qüvvələrinin işğal edilmiş ərazilərdən dərhal və qeyd-şərtsiz çıxarılmasını, habelə məcburi köçkünlərin doğma yurdlarına qaytarılmasını tələb edən 822, 853, 874 və 884 nömrəli qətnamələr qəbul edib. 2008-ci ilin martında BMT Baş Assambleyası 62/243 nömrəli qətnamə qəbul edərək beynəlxalq birliyin Təhlükəsizlik Şurasının sənədlərində əks olunmuş mövqeyini bir daha təsdiq edib. Müxtəlif ölkələrin və beynəlxalq təşkilatların qanunvericilik orqanları BMT-nin həmin qətnamələrini əsas götürərək Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılmasını tələb edən sənədlər qəbul ediblər.

***Yusif Babanlı***
***AZƏRTAC-ın xüsusi müxbiri***
***Vaşinqton***

# Binəqədi rayon kollektivləri Heydər Əliyev Mərkəzində ekskursiyada olublar

***Azərbaycanın Dövlət Müstəqilliyi Günü münasibətilə Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatının, Binəqədi rayon Gənclər və İdman İdarəsinin kollektivi, könüllü gəncləri və İctimai İaşə və Xidmət üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzinin tələbələrinin iştirakı ilə Heydər Əliyev Mərkəzinə ekskursiya təşkil edilib.***

Ekskursiyada Heydər Əliyev Mərkəzi ilə yaxından tanış olan kollektivə məlumat verilib. Bildirilib ki, mərkəzin layihəsi 2007-ci ildə Londonda yaşayan iraqlı məşhur memar Zaha Hadid tərəfindən işlənib. 10 may 2012-ci ildə Ulu Öndər Heydər Əliyevin 89-cu ildönümündə mərkəzin təntənəli açılış mərasimi olub. Mərasimdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva da iştirak ediblər. Qeyd olunub ki, mərkəz Heydər Əliyev irsinin araşdırılması, təbliği və fondlarda qorunması istiqamətində fəaliyyət göstərir. Mərkəzin ən cəlbedici və maraq doğuran bölümü Heydər Əliyev Muzeyidir. Dizaynı və burada tətbiq edilən yeni texnologiyalarla fərqlənən muzey mərkəzin modern üslubu ilə həmahəngdir. Muzey Azərbaycan tarixinin və Ümummilli Lider Heydər Əliyevin həyat və fəaliyyətinin müxtəlif dönəmlərini əks etdirir. Burada toplanan məlumatlar ziyarətçilərə interaktiv formada çatdırılır. Üç mərtəbədən ibarət muzeydə Ümummilli Lider Heydər Əliyevə aid maraqlı faktlar, foto və videomateriallar və digər ünikal eksponatlar təqdim olunur.





Ümummilli Lider, Heydər Əliyevə aid əşyalar, foto və çəkilişlər ekskursiya iştirakçılarında dərin maraq doğurub.

**ZÜMRÜD BAYRAMOVA**



# Suraxanıda 18 Oktyabr Azərbaycanın Dövlət Müstəqilliyi Günü qeyd olunub

Dünən Yeni Azərbaycan Partiyası Suraxanı rayon təşkilatı "Heydər Əliyev - Azərbaycan bələdiyyəsi" mövzusunda elmi-praktiki konfrans keçirib. İlk olaraq, müstəqil Azərbaycanın Qurucusu, Ulu Öndər Heydər Əliyevin xatirəsi bir dəqiqəlik sükutla yad olunub. Tədbiri YAP Suraxanı rayon təşkilatının sədri Vüqar Seyidov açaraq Ulu Öndər Heydər Əliyevin Azərbaycan tarixindəki müstəsna roluna nəzər salaraq, Ümummilli Liderin müstəqil Azərbaycan dövlətinin banisi və azərbaycançılıq ideologiyasının müəllifi olduğunu bildirdi.

Rayon təşkilatının sədri Heydər Əliyevin hələ Sovetlər dövründə Azərbaycanda kifayət qədər işlər gördüyünü və qısa vaxt ərzində, respublikamızı İttifaq respublikaları arasında qabaqcıl yerlərə çıxardığını və əhalinin rifah halının yaxşılaşdırılmasına nail olduğunu vurğulayıb: "Xalqımızın son 500 illik tarixində milli dövlətimizin formalaşmasında Heydər Əliyev qədər rol oynamış ikinci bir şəxsiyyət tapmaq mümkün deyildir və bu danılmaz fakt tarixin istənilən mərhələsində öz aktuallığını qoruyub-saxlamaqdadır. Heydər Əliyevin fədakar mübarizəsi sayəsində ölkəmizdə həyata keçirilən islahatların miqyası və nəticələri, belə deməyə əsas verir ki, artıq respublikamızda cəmiyyətin bütün sosial təbəqələrinin mənafeyini ifadə etmək gücünə malik dövlət qurulmuşdur və onun daha da inkişaf etdirilməsi üçün tələb olunan zəruri potensial formalaşdırılmışdır. Ulu Öndər Heydər Əliyev siyasi kursu Azərbaycan dövlətinin yeganə inkişaf modelidir və indi, nəinki Azərbaycan xalqı, hətta planetin nüfuzlu mərkəzləri də bu qənaətdədir ki, Heydər Əliyev siyasi kursundan kənarda Azərbaycan dövlətçiliyi mövcud ola bilməz". V.Seyidov bildirib ki, müstəqillik illərində Azərbaycan dövləti hərtərəfli inkişaf etmiş, həyatımızın bütün sferalarında köklü dəyişikliklər baş vermişdir. Beynəlxalq aləmdə də uğurlarımız çox olmuşdur. Biz hamılıqla ölkəmizdə keçirilən humanitar forumların, möhtəbər ilk Avropa Oyunlarının, İslam Həmrəyliyi Oyunlarının, müxtəlif simpoziumların, mahnı festivallarının canlı seyrcisi olmuşuq.

Ulu Öndər Heydər Əliyev siyasi kursunu ləyaqətlə davam etdirən ölkə başçısı Cənab İlham Əliyev Avropa Şurasında, Birləşmiş Millətlər Təşkilatında və digər mötəbər tədbirlərdə cəsarətli çıxışları ilə xalqımızın istək və arzularını bütün dünyaya çatdırıb.

Tədbirdə Qaraçuxur Bələdiyyəsinin üzvü Eldar Mirzəliyev "Heydər Əliyev və Azərbaycan Bələdiyyəsi" mövzusunda məruzə ilə çıxış edib. Daha sonra Əmircan Bələdiyyəsinin üzvü Cəmilə Ağayeva, Hövsan Bələdiyyəsinin sədri Elbrus Xəlilov, Bülbülə Bələdiyyəsinin sədri Natiq Həsənov, Qaraçuxur Bələdiyyəsinin sədr müavini Əvəz Mirzəyev, Suraxanı rayon icra hakimiyyətinin şöbə müdiri Barxudar Barxudarov çıxış edərək bildiriblər ki, bu gün Azərbaycan dövləti, Azərbaycan xalqı Möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi altında gələcəyə və inkişafa doğru, məhz Ulu Öndər Heydər Əliyevin təməlini qoyduğu yolla inamla irəliləyir. Möhtərəm Prezidentimiz İlham Əliyevin həyata keçirdiyi siyasi kurs sayəsində Azərbaycanın yeni dövrün tələblərinə cavab verən sürətli və kompleks inkişafı təmin olunub.

**Z.BAYRAMOVA**

# YAP Azərbaycanın sosial-iqtisadi cəhətdən inkişaf etmiş ölkəyə çevrilməsində fəal rol oynayıb

*Qobustan rayonunda Yeni Azərbaycan Partiyasının 25 illik yubileyi ilə bağlı tədbirlər davam edir*



Dünən Yeni Azərbaycan Partiyası Qobustan rayon təşkilatı Heydər Əliyev Mərkəzində "Yeni Azərbaycan Partiyası dünənin, bu günün və gələcəyin partiyasıdır" mövzusunda elmi-praktik konfrans keçirdi. Konfrans iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin abidəsi önünə tər gül dəstələri düzdülər. Konfransı giriş sözü ilə açan YAP Qobustan rayon təşkilatının sədri Füzuli Gülaliyev partiyanın keçdiyi tarixi yoldan danışaraq bildirdi ki, YAP tarixi zərurətdən yaranaraq qısa zaman kəsiyində ümumxalq partiyasına çevrildi. İctimai siyasi proseslərin kifayət qədər mürəkkəb və keşməkeşli olduğu bir vaxtda Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə yaranan YAP qısa müddətdə ölkənin gələcək taleyini müəyyənləşdirən əsas siyasi qüvvəyə çevrilən təşkilat oldu. F.Gülaliyev sonra qeyd etdi ki, xalqa, vətənə, dövlətçiliyə xidmət edən YAP Ümummilli Lider Heydər Əliyev ideyalarına əsaslanaraq, ölkəmizin ictimai-siyasi həyatında fəal iştirak etmiş dövlətçiliyimizin möhkəmlənməsinə və dinamik inkişafa töhfələr vermişdir. Yeni Azərbaycan Partiyası iqtidarda olduğu müddətdə Azərbaycanın siyasi və iqtisadi müstəqilliyi daha da möhkəmlənmiş, ölkəmizin beynəlxalq aləmdə mövqeyi güclənmişdir. Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri Cənab İlham Əliyevin həyata keçirdiyi siyasət ölkəmizə böyük nüfuz qazandırmış, Azərbaycan regionun lider dövlətinə çevrilmişdir. Ölkəmizin iqtisadi cəhətdən qüdrətlənməsi əhalinin sosial rifah halının daha da yaxşılaşmasına səbəb olmuşdur. Sonra rayon icra hakimiyyətinin başçısı Adil Məmmədov çıxış edərək, bildirdi ki, Azərbaycan xalqının ciddi sınaqlarla üzləşdiyi bir dövrdə Ümummilli Lider Heydər Əliyevin müdrik düşüncəsi ilə yaradılmış Yeni Azərbaycan Partiyası, özünün tarixi missiyasını davam etdirərək, Prezident İlham Əliyevin rəhbərliyi ilə vətənimizin tərəqqisi naminə həyata keçirilən fəaliyyətin ideya-siyasi təminatçısı rolunu müvəffəqiyyətlə yerinə yetirir. YAP Sədri, ölkə Prezidenti Cənab İlham Əliyevin yüksək rəhbərlik bacarığı ilə ölkəmizdə sosial-iqtisadi sahədə davam edən tərəqqi bu gün daha dinamik şəkil almışdır.Hazırda respublikamız böyük inkişaf yolundadır. Dövlətimizin iqtisadi qüdrəti durmadan artır, xalqın həyat səviyyəsi gündən-günə yaxşılaşır. Regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının icrası ilə bağlı görülmüş işlər nəticəsində çoxlu yeni müəssisələr tikilmiş, iş yerləri açılmış, əmək haqları, pensiya və müavinətlər ardıcıl olaraq, dəfələrlə artırılmış, vətəndaşların rifah halı durmadan yüksəlmişdir. Bu inkişafı hər bir vətəndaş yaşadığı ərazidə, öz şəxsi həyatında görür və hiss edir.

Tədbirdə çıxış edən şura üzvləri Aytən Mənsimova, Zaur Cəfərov və digərləri vurğuladılar ki, Ulu Öndərin dediyi kimi, Yeni Azərbaycan Partiyası dünənin, bu günün və sabahın partiyası olaraq, hələ uzun illər doğma Azərbaycan xalqının və Azərbaycan dövlətinin gələcəyi naminə fəaliyyət göstərəcək.

**RƏFİQƏ**

## Ağcabədidə YAP-ın yaradılmasının 25 illiyinə həsr olunmuş tədbirlər davam edir



YAP Ağcabədi rayon təşkilatının 11 saylı ərazi ilk partiya təşkilatında Yeni Azərbaycan Partiyasının yaradılmasının 25 illik yubileyinə həsr edilmiş tədbir keçirilib. Tədbirdə əvvəlcə Dövlət Himni səsləndirilmiş, sonra YAP-ın və müstəqil Azərbaycanın qurucusu və memarı, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbiri giriş sözü ilə açan 11 saylı ərazi ilk partiya təşkilatının sədri Eynulla Hacıyev YAP-ın tarixi zərurətdən yaranması və ölkənin ictimai-siyasi həyatındakı rolu, eyni zamanda, yarandığı gündən bu günə qədər keçdiyi mübarizə yolundan danışaraq, məhz Ulu Öndərin parlaq zəkası və uzaqgörən, düşünülmüş siyasəti nəticəsində ölkəmizi düşdüyü ağır vəziyyətdən çıxardığını diqqətə çatdırıb.

YAP üzvü, 11 saylı məktəbin direktoru Lətafət Əlizadə çıxış edərək, 700 mindən çox üzvü özündə birləşdirən Yeni Azərbaycan Partiyasının sıralarının genişləndiyini və bu gün gənclərin YAP sıralarına böyük həvəslə daxil olduğunu diqqətə çatdırıb.

Ərazi ilk partiya təşkilatı sədrinin müavini Sevda Gülmalıyeva çıxışında ötən əsrin 90-cı illərində ölkənin düçar olduğu xaos və anarxiyadan danışıb. Ölkəni uçurum təhlükəsindən xilas edən Azərbaycan xalqının Dahi Oğlu Heydər Əliyevin dövlətimiz qarşısındakı misilsiz xidmətlərindən danışaraq, bu gün həmin uğurlu siyasətin Möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən layiqincə və yüksək səviyyədə davam etdirildiyini tədbir iştirakçılarının nəzərinə çatdırıb.

Tədbirdə YAP üzvləri Cahangir Cəfərov, Elyana Vəliyeva, İlhamə Əliyeva çıxış edərək, YAP üzvü olduqlarından qürur duyduqlarını bildiriblər.

Sonda YAP Ağcabədi rayon təşkilatının baş məsləhətçisi, YAP Ağcabədi rayon təşkilatının idarə heyətinin üzvü Ramil Nağıyev çıxış edərək, Dövlət Müstəqilliyi Günü və YAP-ın 25 illik yubileyi münasibətilə siyasi həmfikirlərini təbrik edərək, gələcək fəaliyyətlərində onlara uğurlar arzulayıb.

R.Nağıyev çıxışında 21 noyabr 1992-ci ildə yaradılmış YAP-ın ölkənin ictimai-siyasi həyatındakı rolundan geniş danışaraq, cəmi bir ildən sonra hakim iqtidar partiyasına çevrilən YAP-ın qısa müddət ərzində öz ətrafında minlərlə vətənpərvər insanı birləşdirdiyini diqqətə çatdırıb. Məhz Ulu Öndər Heydər Əliyevin rəhbərliyi altında o dövrdə həyatın iflic olmuş bütün sahələrində yeni bir inkişaf prosesinin başlandığını yenicə müstəqilliyini bəyan etmiş ölkənin iqtisadiyyatının dirçəldilməyə başladığını, 1994-cü ilin sentyabr ayının 20-də Bakı şəhərində dünyanın ən böyük neft müqaviləsinin imzalanaraq, yeni bir yüksəlişin təməlinin qoyulduğunu diqqətə çatdırıb.

Qeyd olunub ki, əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş, uzaqgörən, düşünülmüş siyasi kurs bu gün də Möhtərəm Prezidentimiz Cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Cənab İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın beynəlxalq aləmdə müsbət imici formalaşmış, ölkə daxilində sabit və dinamik inkişaf bərqərar olmuşdur. Məhz bunun nəticəsində ölkəmizdə beynəlxalq tədbirlərin keçirilməsinə və bölgədə irimiqyaslı layihələrin reallaşmasına, eyni zamanda, elm, təhsil, səhiyyə, mədəniyyət və idman sahəsində bir çox uğurlara nail olunmuşdur. Ulu Öndərin təbirincə desək, "Dünənin, bu günün və gələcəyin partiyası" olan Yeni Azərbaycan Partiyası öz yubileyini böyük uğurlarla qarşılayır.

**ZÜMRÜD**

## YAP Goranboy rayon təşkilatının partiyanın yubileyi ilə bağlı tədbirləri davam edir



YAP Goranboy rayon təşkilatı Yeni Azərbaycan Partiyasının yaranmasının 25 illik yubileyi ilə əlaqədar olaraq ilk partiya təşkilatlarında silsilə tədbirlər keçirir. Dünən Qızılhacılı qəsəbə ərazi ilk partiya təşkilatında YAP Qadınlar Şurası ilə birgə Yeni Azərbaycan Partiyasının yaranmasının 25 illik yubileyi ilə bağlı tədbirdə rayon təşkilatının aparat rəhbəri Əzra Həşimova çıxış edərək bildirib ki, bu gün ölkəmizdə Yeni Azərbaycan Partiyası qədər geniş sosial bazaya malik olan kütləvi və dayanıqlı siyasi proseslərə həlledici təsir imkanı olan ikinci bir partiya mövcud deyil: "25 illik tarixi ərzində Yeni Azərbaycan Partiyasınını əldə etdiyi nailiyyətlər partiyanın Goranboy rayon təşkilatının fəaliyyətində də özünü göstərməkdədir. Ötən dövr ərzində Ümummilli Liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi prinsiplərə sadiq qalan YAP Goranboy rayon təşkilatı yüksək təşkilatlanma və inkişaf yolu keçib. Əgər 1995-ci ildə YAP Goranboy rayon təşkilatının sıralarında 500 nəfərə yaxın üzvü vardırsa, hazırda onların sayı 7068 nəfərdən çoxdur. Bu da Ulu Öndər Heydər Əliyevin zəngin dövlətçilik irsinə, siyasi fəlsəfəsinə sədaqət və etiramıdır. Bu gün Azərbaycan Prezidenti tərəfindən həyata keçirilən siyasətə inamın və etibarın ifadəsidir. Təşkilat yarandığı müddətdən indiyə kimi prezident, parlament, bələdiyyə və referendum səsvermələrində yüksək fəallıq göstərərək, öz qələbəsinə imza atdı".

Tədbirdə 1 saylı qəsəbə tam orta məktəbin direktoru İradə Həsənova, 2 saylı qəsəbə tam orta məktəbin direktoru Mətanət Əliyeva, Qəsəbə bələdiyyəsinin sədri Məzahir Allahverdiyev və YAP fəalı Qönçə Dosiyeva çıxış edərək, YAP -ın yaranma tarixindən danışıblar.

Tədbirin sonunda bir qrup gənc YAP üzvlüyünə qəbul edilib.

Eyni zamanda, partiyanın 25 illik yubileyi rayonun Subartezian Quyuları İstismarı İdarəsi ərazi ilk partiya təşkilatı, şəhər bələdiyyəsi ərazi ilk partiya təşkilatı və Aşağı Ağcakənd qəsəbə ərazi ilk partiya təşkilatlarında da yüksək səviyyədə qeyd edilib.

**RƏFİQƏ**

## Xaçmazda YAP-ın 25 illik yubileyi silsilə tədbirlərlə qeyd olunur



YAP Xaçmaz rayon təşkilatı partiyanın yaradılmasının 25 illik yubileyi ilə bağlı ərazi ilk təşkilatlarında silsilə tədbirlərlə qeyd olunur. Növbəti tədbir rayon elektrik stansiyası ərazi ilk təşkilatında keçirilib. Tədbirdə çıxış edən ərazi ilk təşkilatının sədri Nurağa Məmmədov Yeni Azərbaycan Partiyasının yarandığı gündən öz siyasi xəttinə sadiqliyi, xalq və dövlət qarşısında xidmətləri, ölkəmizin bir-birini əvəzləyən uğurları ilə cəmiyyətdəki mövqeyini daha da möhkəmləndirib və ümumxalq partiyası olduğunu bildirib: "Bu gün Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi kursa sadiq qalan ölkə başçısı İlham Əliyevin rəhbərliyi ilə partiya gələcəyə doğru inamla irəliləyir. Bu müddət ərzində, Azərbaycanın siyasi və iqtisadi müstəqilliyi daha da möhkəmlənib və ölkəmizin beynəlxalq aləmdə mövqeyi güclənib. Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin həyata keçirdiyi siyasət ölkəmizə böyük nüfuz qazandırıb, Azərbaycan regionun lider dövlətinə çevrilməklə yanaşı, ölkəmizin iqtisadi cəhətdən qüdrətlənməsi əhalinin sosial şəraitinin yaxşılaşmasına səbəb olub".

Tədbirdə YAP Xaçmaz rayon təşkilatının sədr müavini A.Heydərov, rayon təşkilatı aparat rəhbəri F.Rəhmətov, ərazi ilk təşkilatının üzvü Ş.Bağırov və digərləri partiyanın 25 illik tarixinə diqqət çəkərək, bu müddətdə YAP-ın Azərbaycan xalqı qarşısında gördüyü işləri yüksək dəyərləndiriblər. Qeyd ediblər ki, bu dövr ərzində YAP dövlətçilik uğrunda yorulmadan xidmət göstərib və öz uğurlu fəaliyyəti ilə ölkəmizi dünya miqyasında tanıtmağa nail olub.

**R.KAMALQIZI**

## Zamanın tələbi və xalqın istəyi ilə yaranan partiya

*YAP Biləsuvar rayon təşkilatı partiyanın yubileyi ilə bağlı tədbirlərini davam etdirir*



Dünən Yeni Azərbaycan Partiyasının yaranmasının 25 illik yubileyi ilə əlaqədar YAP Biləsuvar rayon təşkilatında silsilə tədbirlərin növbəti davamı olaraq, Biləsuvar Dövlət Rəsm Qalereyasında məktəblilər arasında rəsm müsabiqəsi keçirilib. Tədbirdə YAP Biləsuvar rayon təşkilatının sədr müavini, aparat rəhbəri Əjdər Niftiyev partiyanın yarandığı tarixi şəraitdən, keçdiyi şərəfli yoldan, YAP-ın qurucusu Ümummilli Lider Heydər Əliyevin xilaskarlıq missiyasından ətraflı bəhs edib. O, eyni zamanda, Azərbaycan Prezidenti İlham Əliyevin gənc nəslin hərtərəfli inkişafı üçün böyük imkanlar yaratdığını vurğulayıb.

Tədbirdə Biləsuvar Dövlət Rəsm Qalereyasının direktoru Rövşən Cənnətov çıxış edərək, respublikamızda gənclərə göstərilən dövlət qayğısından söhbət açıb. Sonda rəsm müsabiqəsinin qalibləri YAP Biləsuvar rayon təşkilatı tərəfindən fəxri fərman və hədiyyələrlə təltif ediliblər.

**R.HÜSEYNOVA**

## Doqquz ayda Bakıda soyğunçuluq və quldurluq cinayəti törətmiş 50 qrup ifşa olunub

Bu ilin doqquz ayı ərzində təqsirləndirilən şəxs qismində axtarışda olan 1566 nəfərdən 66,5 faizi, ağır və xüsusilə ağır cinayətlərə görə axtarılan 600 nəfərdən isə 48,2 faizi tutulub. Bununla yanaşı, 60 soyğunçuluq və quldurluq cinayəti törətmiş 107 nəfərdən ibarət 50 qrup, eləcə də 101 mənzil oğurluğu törətmiş 121 nəfərdən ibarət 49 cinayətkar qrup ifşa olunub. AZƏRTAC xəbər verir ki, bu barədə Bakı Şəhər Baş Polis İdarəsində 2017-ci ilin 9 ayının yekunlarına həsr olunmuş əməliyyat müşavirəsində məlumat verilib.

Diqqətə çatdırılıb ki, cinayətlərin profilaktikasında və açılmasında müasir informasiya texnologiyalarının tətbiqinin böyük əhəmiyyəti olub. Baş İdarənin və ərazi polis orqanlarının "Təhlükəsiz şəhər" xidmətinin operatorları tərəfindən 3944 hadisə aşkarlanıb, kameraların arxiv görüntülərindən istifadə edilməklə 223 bağlı cinayət açılıb.

# Kristofer Smit ənənəvi ampluada olduğunu nümayiş etdirdi

*Helsinki Komissiyasından bundan fərqli heç nə gözləmək də olmazdı*

***Dağlıq Qarabağ münaqişəsinin dinc danışıqlar yolu ilə nizamlanması məqsədilə ATƏT-in yaratdığı Minsk Qrupunun həmsədrləri Keri Kavano, Ceyms Uorlik, Beynəlxalq Böhran Qrupunun proqram direktoru Maqdalena Qrononun iştirakı ilə oktyabrın 18-də ABŞ-ın Helsinki Komissiyasının "Dağlıq Qarabağ müharibəsinin yenidən başlanmasının mümkünlüyü və bu məsələdə ABŞ və ATƏT-in rolu" mövzusunda budəfəki dinləmələrində də Dağlıq Qarabağla bağlı məsələlərə səthi yanaşılaraq, əsasən, Azərbaycanda insan hüquq və azadlıqları barədə müzakirələrə üstünlük verilibdir.***

Görünür, bu üsulla diqqəti yayındırmaq, yenə də insan hüquqları kimi ali prinspləri təzyiq vasitəsi üçün alət kimi ortaya atmaq niyyəti ön plana çəkilir. Məsələyə obyektiv yanaşmaq, beynəlxalq hüquq norma və prinsplərinə uyğun olaraq, qiymət vermək maraq dairəsində deyil. Amerika Birləşmiş Ştatları Azərbaycanla normal, qarşılıqlı maraqların nəzərə alındığı və suveren siyasət prinsiplərinə riayət olunduğu münasibətlərin qurulmasında maraqlı olduğunu, Helsinki Komissiyası isə ATƏT ölkələrində Helsinki Yekun Aktına və başqa öhdəliklərə əməl olunmasının monitorinqi və təbliği məqsədilə yaradıldığını bəyan edir. Azərbaycana qarşı "907-ci düzəliş"in müəlliflərindən biri, ermənilərin işğalçılıq siyasətinə bəraət qazandıran, Dağlıq Qarabağın müstəqilləşməsi ideyasını təbliğ edən və bu istiqamətdə əsaslı tədbirlər görən şəxsin - Kristofer Smitin təşəbbüsü ilə yaradılan Helsinki Komissiyasından bundan fərqli heç nə gözləmək də olmazdı. Ermənistanın Azərbaycan torpaqlarının 20 faizini işğal etməsindən, həmin ərazilərdə etnik təmizləmə aparmasından, milyonlarla insanın təcavüzə məruz qalmasından, bir sözlə, bəşəri cinayətlərdən, elə bil ki, dünya ictimaiyyəti xəbərsizdir və dünyanın gözündən sanki pərdə asılıb. ATƏT-in Minsk Qrupunun keçmiş amerikalı həmsədrləri Keri Kavano, Ceyms Uorlik, eləcə də, Beynəlxalq Böhran Qrupunun proqram direktoru Maqdalena Qrononun iştirakıyla ABŞ Helsinki Komissiyasında oktyabrın 18-də keçirilən, Qarabağ münaqişəsi ilə əlaqədar dinləmələrdə yenə də məsələyə ciddi yanaşmayaraq, Dağlıq Qarabağla bağlı hər hansı müsbət addım atılmadı və əsas diqqət Azərbaycandakı insan haqlarına, demokratik dəyərlərə və bu kimi məsələlərə yönəldildi.

Göründüyü kimi, yenə də manipulyasiya etmək cəhdləri göz qabağındadır və işğala məruz qalmış Azərbaycan həqiqətlərinin ört-basdır edilməsi üçün, ənənəyə müvafiq olaraq insan haqları, demokratik dəyərlər kimi özlərinin dəyər vermədiyi məsələlər ortaya qoyularaq, Qarabağ münaqişəsi ilə əlaqədar heç bir ciddi və dürüst mövqe bildirilmir. Helsinki Komissiyasının da digər beynəlxalq qurumlar və şuralar kimi Azərbaycana qarşı mövqeyi bəllidir və bu, ələlxüsus, ikili standartlar siyasəti yürütməkdən başqa bir şey deyil.

## Helsinki Komissiyasının qərəzi bəlli oldu

ABŞ Helsinki Komissiyasının növbəti müzakirələri "Dağlıq Qarabağ müharibəsinin yenidən başlanmasının mümkünlüyü, bu məsələdə ABŞ və ATƏT-in rolu" mövzusunda deyil. Yenə də Azərbaycana təzyiqlərə, ikili standartlara, erməni maraqlarının müdafiəsinə, separatçıların, terrorçuların ruhlandırılması və nəticə etibarı ilə münaqişənin yenidən qızışdırılmasına hesablanmışdır. Bu mənada, yaxşı olardı ki, ABŞ Helsinki Komissiyasının növbəti müzakirələrinin mövzusu dəyişdirilərək, Dağlıq Qarabağ müharibəsinin yenidən qızışdırılması, separatçıların, işğalçıların ruhlandırılması, hər hansı formada dəstəklənməsinin mümkünlüyü, bu məsələdə ABŞ və ATƏT-in xüsusi xidmətləri kimi qeyd olunsun.



ABŞ Erməni Milli Komitəsinin (ANKA) radikal rəhbərlərindən biri olan Aram Hamparyan Twitterdəki profilində konqresmen K.Smitin ANKA sədri ilə görüşü əks olunub və alt yazısında isə A. Hamparyanın "Hay Dat"a ("Erməni məsələsi") dəstəyə nail olmaq üçün Smitlə görüşdüyü bildirilir. Görünür, A. Hamparyan, K. Smit və təmsil etdiyi erməni lobbisi dinləmələr keçirməklə Ermənistanı "müdafiəyə ehtiyacı olan tərəf" kimi tanıtmaq və ABŞ qanunvericilərini işğalçı rejimə maliyyə və hərbi xarakterli yadımı artırmağa çağırmaq məqsədi güdür. 2016-cı il aprel döyüşlərinin nəticələrinə istinad edilməsi, itkilərin statistikasının komissiyanın məlumatında əks olunması isə Ermənistan və erməni lobbisinin aprel döyüşlərində Azərbaycan Ordusunun əldə etdiyi hərbi-strateji və mənəvi üstünlüyü qəbul edə bilmədiyini təsdiq edir. Bu isə, öz növbəsində, o deməkdir ki, aprel döyüşləri Dağlıq Qarabağ probleminin həlli məsələsində yeni hərbi-siyasi reallıqlar yaradıb və Azərbaycanın danışıqlarda mövqeyini kifayət qədər gücləndirib. Görünür, bu da Aram Hamparyan, Kristofer Smit kimilərini narahat edir və məsələ müzakirə mövzusu olaraq, ABŞ Helsinki Komissiyasına çıxarılır. Məqsəd isə Dağlıq Qarabağ münaqişəsi bölgəsində hərbi əməliyyatların başlanma riskinin artması ilə bağlı "humanitar təlaş" şousu yaratmaqla, əslində, Ermənistana siyasi və digər dəstək kampaniyasını daha da genişləndirməkdən ibarərdir.

## "Dağlıq Qarabağdakı erməni separatçıları zərərsizləşdirilməlidir"

ABŞ-ın Helsinki Komissiyası vaxtaşırı Dağlıq Qarabağ məsələsini müzakirəyə çıxarsa da, təəssüf ki, hələ də nədənsə məsələnin əsl mahiyyətinə varılmır və Ermənistanın Azərbaycan torpaqlarının bir hissəsini işğal etməsi, 1 milyondan artıq insanı qaçqın və məcburi köçkün vəziyyətinə salması onların müzakirə obyektinə çevrilmir. Xaricdəki erməni diaspor təşkilatları, bir qayda olaraq, bu və ya digər bəhanələrlə xaricdən Ermənistan üçün yardım almaq, yaxud da işğal olunmuş zonaya hüquqi status vermək üçün istifadə etməyə çalışırlar. Lakin problem köklü şəkildə, ədalətlə, beynəlxalq hüquq norma və prinsplərinə müvafiq olaraq öz həllini tapmayanadək, onların bu cəhdləri heç bir nəticə verməyəcək. Azərbaycanın ərazi bütövlüyü təmin edilməyincə, nə Ermənistan sakitlik tapacaq, nə də ki, işğal edilmiş zonada hər hansı bir hüquqi status almaq mümkün olacaq və Azərbaycan tezliklə öz torpaqlarını geri qaytaracaq. Məsələyə münasibətini bildirən millət vəkili Aytən Mustafayeva "Səs" qəzetinə açıqlamasında bildirdi ki, ATƏT-in, ya başqa beynəlxalq təşkilatların ikili standartlarına nəzər yetirəndə, münaqişənin ədalətli həllinə ümid azalır: "Beynəlxalq təşkilatlar öz qərarlarını dəstəkləyə bilsəydilər və onların işləməsini təmin etsəydilər, onlar daha çox nüfuza malik olardılar. Bu, bütün beynəlxalq təşkilatlara aiddir, BMT-dən tutmuş Avropa Şurasına qədər. İkincisi də, hesab edirəm ki, Azərbaycan, bu problemi daxili bir üsyanın qabağının alınması kimi həll etməlidir. Necə ki, Kataloniyaya qarşı İspaniya hakimiyyəti öz addımlarını atır. Çeçenistanda üsyan olanda, necə Rusiya öz daxilində separatçıları susdurmuşdu, eləcə də, Azərbaycanda Qarabağdakı terrorçular zərərsizləşdirilməlidirlər. Amma biz ümid etdik ki, beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü tanıyacaq, münaqişə sülhlə başa çatacaq və beynəlxalq təşkilatların vasitəçiliyi ilə problem həll olunacaq. Amma gördük ki, yalnız qətnamələr qəbul etməklə, bunlar öz işlərini bitmiş hesab etdilər. Azərbaycana münasibət belədirsə, biz bunu artıq daxili bir problem kimi həll etməyə həm qadirik, həll eliyə bilərik, buna hüququmuz da var".

***İnam HACIYEV***



# Erməni siyasətinin muzdlu nökərləri

**RƏFİQƏ**

***Söz açacağım və hər zaman məni düşündürən bir sualın cavabını almaq istəmişəm: "Özlərini ictimai rəyə müxalifətin "dədəsi", "babası" kimi təqdim edənlərin "vicdandan", "insani dəyərdən", daha nə bilim nədən danışmağa haqqları varmı? Əgər belədirsə, bunların düşüncələri 0%-ə bərabərdir, yəni daha doğrusu, düşüncəsizdirlər, başqa bir adı da yoxdur! Namussuzun, şərəfsizin, vicdansızın, şəxsi maraqlarına görə, hər şeyi satanın sadalananlar barədə danışması, lap dinsizin imansızdan, imansızın dindən danışması kimi.***

Bu, o kəslərdir ki, tarixlər boyu bollu-bərəkətli müqəddəs məmləkətimizdə indiyə qədər çörəyini yeyib, suyunu içib, sonra da milli maraqları satan xəyanətkarlar sürüsü sonra da erməni siyasətinin muzdlu nökərlərinə çevriliblər. Bu, hər zaman olub, bu gün də belədir. Bu gün də milli xəyanətkarlar sürüsünü otaranlar ermənlər və onların böyük pullar buraxdığı təşkilatlardır.

Belə milli xəyanətkarlardan olan L.Yunusdur ki, məlum, aşkar xəyanətlərinə görə ələhəzrət qanun qarşısına çıxarılır! Həmin Leyla Yunus ki, I Dağlıq Qarabağ müharibəsi zamanı, 1992-93-cü illərdə Müdafiə Nazirliyinin analitik şöbəsinə rəhbərlik edərkən, Azərbaycan Televiziyası vasitəsilə çıxışlarında, xəritələr vasitəsilə (!!!-R.H.) mövqelərimizi erməniyə nişan verirdi! Həmin L.Yunus ki, yalnız həqarət edəndə, söyüş söyəndə, küfr səsləndirəndə Azərbaycan dilində danışdığını etiraf edib! Həmin L.Yunus ki, dəfələrlə Ermənistanda, Qərbi Avropada səfərlərdə olarkən, orada erməni kəşfiyyatçısının xəfiyyələri ilə görüşərək, təlimatlar alıb, onların yerinə yetirilməsi üçün, verbovkalarla məşğul olub! Həmin L.Yunus ki, o, həbs olunarkən, cəbhədəki gərginlik zamanı şəhid olan əsgərlərimizin daha çox ölməsini arzu edən qızı xitabən "Azərbaycan əsgərləri gəbərsinlər" deyə ermənicəsinə bağırıb, özü də fahişəcəsinə!

Əqidəsizlərin, satqınların, ikiüzlülük, xəyanət, paxıllıq, xəbislik, şantaj və pul hərisliyi- bütün bunlar hazırda Cəmil və Gültəkində cəmləşib. Amma Cəmillə Gültəkin azərbaycanlı adları və soyadlarını daşısalar belə, real azərbaycanlı olmaq dəyəri onlardan qat-qat uzaqdadır. Hətta o qədər uzaqdadır ki, erməni dəyəri və marağı daha yaxındır beləlerinə. Ancaq bir faktı deməmək də haqsızlıq olar. O da Cəmil Həsənli, Gültəkin Hacıbəyli nə qədər satqın, ikiüzlü, əqidəsiz, xəyanətkar, paxıl, şantajçı, pul hərisi olsalar da, AXCP sədri Ə.Kərimlidən artıq ola bilməzlər. Faktdan qaçmaq olmaz: su axıb, çuxurunu tapıb. Cəmil və Gültəkin, AXCP, "Milli Şura" adlı çuxura axıb. "Azadlıq" isə olub bunların ruporları. Belə abırsızlardan nəyi gözləmək olar? Bir neçə il öncəyə qədər G.Hacıbəyli YAP-ın seçki platformalarının təbliğatında öndə gedənlərdən biri idi. Amma bir dəfə deputat seçilməyən kimi, nəinki döndü oldu müxalifətçi, xeyr! Döndü oldu dağıdıcı, barışmaz, aşırı radikal müxalifətçi!

C.Həsənlidən isə danışmağa dəyməz. Çünki onun haqqında çox danışılıb. Gəl indi buna "şərəfli" siyasət donu geyindir görüm, necə geyindirirsən!

Elə bilirsiniz bununla erməni siyasətinin muzdlu nökərlərinin sayı qurtarır? Əsla, yox! Elə Arif Hacılı da, İsa Qəmbər də, o biri də, bu biri də eyni bezin qıraqlarıdırlar və bu kəslər artıq tarixə satqın kimi düşüblər və öz adları ilə də çağırılırlar.

# Rauf Arifoğlu dağıdıcı müxalifəti ifşa etdi

*Baş yazar: "Cəmil Həsənli nanəcib, Əli Kərimli isə satqındır"*

***2018-ci ildə keçirilməsi nəzərdə tutulan prezident seçkiləri yaxınlaşdıqca dağıdıcı müxalifət düşərgəsində ziddiyyətlər, qalmaqalllar və təhqirlər daha da çoxalır. Elə bu günlərdə dağıdıcı müxalifət düşərgəsində növbəti qalmaqalın - "Yeni Müsavat" qəzetinin baş redaktoru Rauf Arifoğlunun radikalların iç üzünü ifşa etməsi olub. Xüsusilə də, "Milli Şura"nın əttökən mitinqlərindən, sosial şəbəkələrdə prezidenlik iddiasında olmaları ilə bağlı açıqlamalarına dözə bilməyən "Yeni Müsavat" qəzetinin baş yazarı Rauf Arifoğlu 2013-cü ildən bəri müxalifət düşərgəsində, bir nəfər də olsun, dəstəklənəsi "lider"in olmadığını vurğulayıb.***

Baş yazar C.Həsənlini nanəcib, Ə.Kərimlini isə satqın adlandırıb: "Cəmil Həsənli nanəcib adamdir, Əli Kərimli isə satqındır. Onlar hakimiyyətə gəlsə, Azərbaycan qarışar, proqnozlaşdırılmayan proseslər olar, ölkə ərəb dövlətlərindən də bərbad vəziyyətə düşər". R.Arifoğlu onu da bildirib ki, bu düşərgədə olanların hamısı radikallar cəbhəsindəki murdar və satqındırlar: "Milli Şura" xarici dəstəklə yaradılmış və əslində, əsas məqsədi Azərbaycana zərər vurmaqdır. Əvvəlcə müxalifətə Rusiya vətəndaşı olan bir namizədin dəstəklənməsi diktə edilib. Bu, baş tutmayınca C.Həsənlinin üzərində dayanılıb. Amma C.Həsənlini dəstəklədim - o dəstəyə layiq deyildi, çox nanəcib bir adamdır, lakin proses elə gətirdi ki, biz ən zəif fiqurlarla yarışmağa məhkum edildik".

### Əli Kərimli başdan-ayağa ağılsız, vətən xaini və üfunət vasitəçisidir

R.Arifoğlu onu da bildirib ki, "Milli Şura" və Ə.Kərimli hazırda ölkəyə



zərər vurmaqla və düşmənçilik toxumu səpməklə məşğuldur: "Ə.Kərimli ağılsız adam, vətən xaini və üfunət vasitəçisidir. Müxalifət təsisatını o qədər zibilləyiblər ki, üfunətdən onlara yaxın durmaq olmur. Çünki "Milli Şura" xarici dairələrin əlində bir təsir vasitəsindən başqa bir şey olmadığını Azərbaycan ictimaiyyəti də yaxşı bilir və onu da bilir ki, Ə.Kərimlinin partiyasını və "Milli Şura"nı "İŞİD"-çilərlə eyniləşdirir: "Ə.Kərimli bir şeyi də anlamır ki, Qərb paytaxtları da, Moskva da cəmiyyətə bu cür düşmənçilik toxumu səpən, radikallıq yayan "İŞİD"-çiləri hakimiyyətə buraxmaz. Heç onların siyasi alternativ olmasına belə imkan verməzlər".

R.Arifoğlu bildirib ki, Ə.Kərimli və AXCP təxminən 17 ildir ki, "Yeni Müsavat" qəzeti ilə savaş halındadır. Onun sözlərinə görə, uzun müddətdir ki, davam edən söz atışması artıq pik həddinə çatıb: "Arada müəyyən fasilələr, yaxınlaşmalar olub, lakin yenidən bu cür toqquşmalar davam edib. İndi həmin toqquşmaların və mənəvi terror prosesinin pik həddini yaşayırıq. Bir partiya lideri ilə müstəqil qəzetin redaktoru və kollektivi arasında söz atışması gedir. Buna onlar başlayıblar, daha çox ağır ittihamlar irəli sürürlər. Sosial şəbəkələrdə, hətta bizim valideynlərimizi belə təhqir etməkdən çəkinmirlər. Biz isə hər kəsin valideyninə cansağlığı, ölənlərə rəhmət arzulayaraq, özlərinin yazdıqlarına cavab veririk".

Onun sözlərinə görə, AXCP səd-ri dəfələrlə müxalifət düşərgəsinə tam sahib olmaq üçün "Yeni Müsavat" qəzetini sıradan çıxarmağa çalışıb. R.Arifoğlu qeyd edib ki, burada məqsəd həm də Müsavat partiyasının parçalanmasıdır: "Ə.Kərimli hesab edir ki, "Yeni Müsavat" qəzeti onun müxalifət düşərgəsinə tam və şəriksiz sahiblənməsi üçün yeganə baryerdir. Ə.Kərimli və onun timsalında olan funksionerlər, müxalifət təmsilçiləri demokrat deyil, şantajçıdırlar. Bu adamlar Azərbaycan milli azadlıq hərəkatının yeganə uğurlu layihəsi, müstəqil qəzet olan və qəzetçilər tərəfindən idarə olunan bir qəzetə hücum edirlər və onu sıradan çıxarmaq istəyirlər".

### Rauf Arifoğlu: "Ə.Kərimli və dəstəsinə müalicəsi olmayan xəstəlik kimi yanaşıram"

R.Arifoğlu Ə.Kərimlinin təşəbbüsü ilə bir neçə dəfə "Yeni Müsavat" və AXCP arasında münasibətlərin düzəldiyini bildirib: "Adətən, seçkilər ərəfəsində münasibətlər düzəlir, seçkilərdən sonra münasibətlər korlanır. Aradan böyük bir dövr keçməsinə baxmayaraq, söhbət 2003-2014-cü illər arasından gedir, 11 il ərzində 2-3 dəfə münasibətlər düzələndə, hər şey yaxşı olur, qəzetdə çıxış edirlər, redaksiyamıza gəlirlər, səhifə-səhifə müsahibə verir, şəkil çəkdirir, söylədikləri ittihamları da "unudurlar". Növbəti dəfə istəklərinə nail olmayanda, qəzeti tamamilə öz mənafelərinə uyğunlaşdıra bilməyəndə, yenidən təhdid edirlər. Çünki Ə.Kərimli siyasi mənada kültürsüz, gerilikçi, normal sivilizasiyanın və demokratiyanın qaydalarını bilməyən anormal xəstədir. Ona görə də, onun Azərbaycan siyasətindən getməsi çox mühümdür, çox vacibdir. Əgər o getməsə, demokratik düşərgə bir araya gələ bilməyəcək, vahid nöqtəni tapa bilməyəcək. Bu adam dağıdıcı və çirkləndirici bir elementdir".

**Rəfiqə HÜSEYNOVA**

## "Milli Şura" mitinqlərlə xarici qüvvələrə "gəl-gəl" deyir

Siyasi uğursuzluq girdabında əzilən dağıdıcı müxalif ünsürlər və onların başında dayananlar siyasətə əlvida deməkdənsə, hələ də siyasi fəaliyyət göstərməyə cəhdlər göstərirlər. Onların keçirdikləri uğursuz mitinqlər xarici qüvvələrin diqqətini özlərinə cəlb etməyə hesablanıb. Baxmayaraq ki, mitinq-şouları uğursuzluğa düçar olur. Bu isə, onları heç də qayğılandırmır. Əsas odur ki, aldıqları xarici maliyyə yardımının müqabilində layihə həyata keçirsinlər.

***"Yurddaş" partiyasının sədri Mais Səfərli:***

- Bu gün dağıdıcı müxalifət düşərgəsini təmsil edən şəxslərin məşğul ola biləcəkləri başqa bir fəaliyyətləri olmadığına görə, bu cür yersiz və heç bir mənası olmayan aksiyalar keçirməyə cəhdlər göstərirlər. Dağıdıcı müxalifət təmsilçilərinin keçirdikləri aksiyalar heç kimə lazım deyil. Əlbəttə, heç kəs üçün də, onlar tərəfindən keçirilən bu aksiyalar maraqlı deyil. Demək olar ki, müxalifət bu cür rüsvayçı aksiyalar keçirməklə özlərini daha da gözdən salırlar. Ümumiyyətlə, müxalifətin aksiyalarında ancaq liderciklərin qohumları iştirak edirlər. Mənası olmayan və hər dəfə də uğursuzluğa dücar olan bu cür aksiyalar keçirməklə bir daha özlərini biabır edirlər. Müxalifətin ardıcıl olaraq, mənasız aksiyalar keçirməyə meyil etmələrinin kökündə xaricdə olan havadarlarının diqqətini özlərinə cəlb etmək məqsədi dayanır. Çünki bu gün hər kəsə bəllidir ki, müxalifət bəzi xarici qüvvələr tərəfindən maliyyələşir. Bu isə dağıdıcı müxalifət üçün hər şey deməkdir. Pula görə, onlar milli və dövlətçilik maraqlarını satırlar. Belə satqın müxalifət qınağa və ittihama layiqdir.



***İnsan Hüquqları XXI əsr Fondunun sədri Şahin Camalov:***

- Dağıdıcı müxalifətin, ardıcıl olaraq, belə aksiyalar keçirməsində əsas məqsədi seçkiöncəsi öz varlığını göstərməkdir. Yəni "hə, görürsüz, biz də varıq". Demək olar ki, müxalifətin bütün aksiyalarının arxasında xarici məkrli qüvvələr dayanır. Amma aksiyalar nəticəsiz qalır. Belə də davam edəcək. Müxalifət nə qədər aksiyalar keçirsə belə, yenə də uğursuzluğa dücar olacaqdır. Çünki onların xalq tərəfindən keç bir siyasi dəstəyi yoxdur. Bu baxımdan, demək olar ki, müxalifət düşərgəsini təmsil edən şəxslər yenidən özlərinin rüsvayçı bir duruma düşmələrini istəmirlərsə, belə aksiyaların keçirilməsindən əl çəksinlər. Siyasət meydanını tərk edib, bacardıqları işlə məşğul olsunlar.



**G.AĞAKƏRİMOVA**

# Ermənistanda oyuncaq hakimiyyət mövcuddur

*Elşən Manafov: "Rusiyanın birtərəfli tərzdə münaqişə tərəflərindən birini silahlandırması beynəlxalq hüququn pozulması deməkdir"*

***Məlum olduğu kimi, oktyabrın 16-da Cenevrədə Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistan prezidenti Serj Sarkisyan arasında görüş keçirilib. Görüşdə ATƏT-in Minsk Qrupunun həmsədrləri və ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsi iştirak edib.***

"Uzun fasilədən sonra Sarkisyanın münaqişənin həlli ilə bağlı masa arxasında oturması nədən irəli gəlir" sualına cavabında politoloq Elşən Manafov "Səs" qəzetinə açıqlamasında bildirdi ki, bey-



nəlxalq birlik və həmsədr ölkələr tərəfindən Ermənistan iqtidarına olan ciddi təzyiqlər Sarkisyanı masa arxasına keçməyə məcbur edib: "Bu təzyiqlər artıq Rusiya iqtidarı tərəfindən də var və ATƏT-in Minsk Qrupunda təmsil olunmuş digər dövlətlər də Ermənistan iqtidarına təzyiq göstərirlər. Amma bu təzyiqlərin edilməsi heç də həmin dövlətlərin Ermənistanla bağlı maraqlarından irəli gəlmir. Sadəcə olaraq, münaqişə bölgəsində gərginliyin artmasını istəmirlər".

"Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqlarının getdiyi bir məqamda, Rusiya Ermənistana 100 milyon ABŞ dolları dəyərində silah satdı. Buna sizin münasibətiniz" sualına cavab olaraq E.Manafov bildirdi ki, Rusiya ATƏT-in Minsk Qrupunda həmsədr dövlətlərdən biridir: Bu baxımdan, rəsmi Moskvanın birtərəfli tərzdə münaqişə tərəflərində birini silahlandırması, yəni Ermənistana 200 milyon dollar kredit ayırması və bunun ardınca Ermənistana Rusiya silahlarının ötürülməsi, əslində, bir necə məqsəd güdür. Bir tərəfdən, Rusiya Ermənistanı özünün maliyyə asılılığında saxlayır və bununla da, Ermənistan iqtisadiyyatının bütün sferalarına təsir imkanlarını artırır. Eyni zamanda, Ermənistanın maliyyə-biznes strukturları da birbaşa Rusiya elitasının ciddi nəzarəti altına keçir. Digər tərəfdən, Rusiya Ermənistanı silahlandırmaqla, göstərir ki, məlum münaqişənin beynəlxalq hüquq normaları kontekstində tənzimlənməsində maraqlı deyil. Təəssüflər olsun ki, Rusiya ATƏT-in Minsk Qrupunun həmsədr dövlətlərindən biri olaraq, üzərinə düşən məsuliyyətin mahiyyətinə vara bilmir və ya bilərəkdən varmır. Sadəcə olaraq, digər beynəlxalq güclər kimi, yəni ABŞ, Fransa və digər Avropa dövlətlərinin xarici siyasətində olduğu kimi, Rusiya tərəfinin xarici siyasətində də ikili stnadartlar özünü qabarıq şəkildə büruzə verir. Rusiya münaqişələrin tezliklə tənzimləməsində maraqlı deyil. Demək olar ki, bu münaqişələr qaldıqca MDB məkanında Rusiyanın maraqlarında olan məlum bölgələrə təsir imkanlarını özündə saxlayacaq".

**GÜLYANƏ**

# XX əsrin 40-50-ci illərindən 90-cı illərədək Azərbaycanda incəsənət və memarlığın inkişafı

II Dünya müharibəsindən sonra Azərbaycanda musiqi mədəniyyəti yüksək inkişaf səviyyəsinə qalxdı:

- Üzeyir Hacıbəyov “Nizami” kantatasını yazır;
- Qara Qarayev “Leyli və Məcnun” simfonik poemasını, “Yeddi gözəl”, “İldırımlı yollarla” baletləri və “Don Kixot” simfonik qravürlərini yazdı;
-Fikrət Əmirov “Şur”, “Kürd ovşarı”, “Gülüstan - Bayatı Şiraz” simfonik muğamlarını “Azərbaycan süitası”nı, “Sevil” operasını, “Azərbaycan kapriççosu”nu, “Nəsimi haqqında dastan” vokal-xorioqrafik poemasını, “1001 gecə” və “Nizami” baletlərini, Soltan Hacıbəyovun “Karvan” simfonik lövhəsi, “Gülşən” baleti, Niyazinin “Rast” simfonik muğamı, “Çitra” baleti, Arif Məlikovun “Məhəbbət əfsanəsi” və “İki ürək dastanı” baletləri, “Axırıncı aşırım”, “Metamorfozalar” simfonik poemaları, Cahangir Cahangirovun “Arazın o tayında” vokal-simfonik muğamı, “Füzuli” və “Nəsimi” kantataları Azərbaycan musiqisini daha da şöhrətləndirdi. 50-ci illərdən başlayaraq, bəstəkar Nəriman Məmmədov səkkiz instrumental muğamı tarzən Əhməd Bakıxanovun ifasında nota yazdı, Bakıda və Moskvada nəşr etdirdi. Tofiq Bakıxanov “Hümayun”, “Şahnaz”, “Rahab”, “Nəva” simfonik muğamlarını yazdı. Simfonik muğam janrının meydana gəlməsi Azərbaycan xalqının Avropa musiqisinə və Avropanın Azərbaycan musiqisinə marağının artmasına şərait yaratdı.

T.Qaffarov yazır: “Dünyada opera yazan ilk qadın bəstəkar Şəfiqə Axundovanın “Gəlin qayası” operası, Əşrəf Abbasovun “Qaraca qız”, Akşin Əlizadənin “Babək” baletləri, Cövdət Hacıyevin, Vasif Adıgözəlovun, Xəyyam Mirzəzadənin simfonik əsərləri, Fikrət Əmirovun, Səid Rüstəmovun, Süleyman Ələsgərovun, Rauf Hacıyevin, Zakir Bağırovun, Emin Sabitoğlunun komediyalara yazdığı musiqilər xalq tərəfindən böyük maraqla qarşılandı. Qəmbər Hüseynlinin, Tofiq Quliyevin, Ağabacı Rzayevanın, Ələkbər Tağıyevin, Emin Sabitoğlunun, Polad Bülbüloğlunun, Oktay Rəcəbovun, Cavanşir Quliyevin mahnıları geniş yayılmışdı. Cənubi Azərbaycan bəstəkarı Əli Səliminin hələ 40-cı illərin ortalarında yazdığı, parçalanmış xalqın dərin nisgilini ifadə edən, lirik-dramatik ovqatlı “Ayrılıq” mahnısı, xüsusən, ötən əsrin 80-ci illərinin sonlarında dillər əzbəri olmuşdu.

Respublikada ifaçılıq sənəti də inkişaf etmişdi. Xalqın sevimli müğənniləri Xan Şuşinski, Seyid Şuşinski, Bülbül, Rəşid Behbudov, Şövkət Ələkbərova, Sara Qədimova, Həqiqət Rzayeva, Əlövsət Sadıqov, Zeynəb Xanlarova, Tükəzban İsmayılova, Arif Babayev, Gülxar Həsənova, Əbülfət Əliyev, Rübabə Muradova, Qədir Rüstəmov, İslam Rzayev, Alim Qasımov, Səkinə İsmayılova və onlarla başqalarının vokal sənəti, tarzənlər Əhməd Bakıxanov, Bəhram Mansurov, Hacı Məmmədov, Həbib Bayramov, Əhsən Dadaşov və Ramiz Quliyevin, qarmonçalan Teyyub Dəmirovun, kamançaçalan Habil Əliyevin ifaçılığı özünəməxsus zəngin milli koloriti ilə seçilirdi.

Yüksək sənətkarlığı ilə bütün dünyada şöhrət qazanmış Niyazi Azərbaycan milli dirijorluq məktəbinin formalaşmasında və inkişafında mühüm rol oynamışdı.

Rəşid Behbudovun rəhbərliyi ilə “Mahnı Teatrı”, İslam Rzayevin başçılığı altında “Muğam Teatrı” təşkil olunmuşdur.

Azərbaycan və Qərb musiqisi ənənələri müğənnilər Müslüm Maqomayevin, Lütfiyar İmanovun, Fidan və Xuraman Qasımovaların, məşhur pianoçular Fərhad Bədəlbəylinin, Vaqif Mustafazadənin və başqalarının sənətində ustalıqla qaynayıb-qarışırdı. Azərbaycan musiqisi və ifaçılıq sənəti bütün dünyada maraqla qarşılanırdı.

Respublikanın teatr və kino sənəti də müəyyən inkişaf yolu keçmişdi. Azərbaycan rejissorluq məktəbinin ən yaxşı ənənələrini, milli özünəməxsusluğunu Ədil İsgəndərov, Tofiq Kazımovski, Mehdi Məmmədov və başqaları müvəffəqiyyətlə inkişaf etdirirdilər. Teatrlarda dünya və Azərbaycan klassik və müasir dramaturqlarının yüzlərlə əsərləri tamaşaya qoyulmuşdu. Görkəmli aktyorlar Ələsgər Ələkbərov, Mərziyyə Davıdova, İsmayıl Osmanlı, Hökumə Qurbanova, Ağasadıq Gəraybəyli, Barat Şəkinskaya, İsmayıl Dağıstanlı, Leyla Bədirbəyli, Mövsüm Sənani, Rza Əfqanlı, Mustafa Mərdanov, Lütvəli Abdullayev, Nəsibə Zeynalova, Məlik Dadaşov, Əli Zeynalov, Məmmədrza Şeyxzamanov, Əliağa Ağayev, Sofa Bəsirzadə və onlarla başqaları Azərbaycan səhnəsində yüzlərlə orijinal və parlaq obrazlar yaratmışdılar.

Azərbaycan səhnəsinə 60-80-ci illərdə Həsən Turabov, Amalya Pənahova, Səməndər Rzayev, Fuad Poladov, Səyavuş Aslan, Yaşar Nuri, Hacıbaba Bağırov, Mikayıl Mirzə, Arif Quliyev, Hamlet Xanızadə, Əliabbas Qədirov, Cahangir Novruzov və başqalarının təmsil etdiyi yeni və istedadlı bir nəsl gəlmişdi.

Azərbaycan kinematoqrafı 1945-ci ildə lentə aldığı “Arşın mal alan” (rejissorlar R.Təhmasib və N.Leşenko) filmi ilə dünya ekranlarına çıxdı. Milli kino sənətinin 1956-cı ildə “O olmasın, bu olsun” (rejissor H.Seyidzadə), 1958-ci ildə “Uzaq sahillərdə” (rejissor T.Tağızadə), 1970-ci ildə “Yeddi oğul istərəm” (rejissor T.Tağızadə), 1959-cu ildə “Ögey ana” (rejissor H.İsmayılov) kimi uğurlu əsərləri meydana gəldi. Bu illərdə çəkilmiş fılmlərdə xalqın tarixi keçmişi, yüksək mənəvi dəyərləri, habelə, çağdaş ictimai reallıqlar, onları doğuran bəzi eybəcərliklər öz əksini tapırdı. “Nəsimi” (1973-cü il, rejissor Seyidbəyli), “Babək” (1979-cu il, rejissor E.Quliyev), “İstintaq” (1979-cu il, rejissor R.Ocaqov), “Axırıncı aşırım” (1971-ci il, rejissor K.Rüstəmbəyov), “Dədə Qorqud” (1975-ci il, rejissor T.Tağızadə), “Tütək səsi” (1975-ci il, rejissor R.Ocaqov), “Ulduzlar sönmür” (1970-ci il, rejissor Ə.İbrahimov), “Yaramaz (1989-cu il, rejissor V.Mustafayev), “Lətifə” (1990-cı il, rejissor N.Mirzəyev) və başqa filmlər bu baxımdan daha maraqlı idi. Azərbaycan cizgi filmləri yaradılmasında rejissorlar B.Əliyev və N.Məmmədovun böyük xidmətləri vardı. Rejissor Ə.İbrahimov 60-cı illərin əvvələrində Vyetnamda kino sənəti yaradıcılarından biri olmuşdu. Bu illərdə Həsən Məmmədov, Rasim Balayev, Şəfiqə Məmmədova və başqalanının təmsil etdiyi istedadlı kino aktyorları nəsli yetişmişdi.

1945-ci ildə yaradılmış professional sirk kollektivi getdikcə inkişaf edir və təkmilləşirdi.

Azərbaycan rəssamlıq məktəbi daha da inkişaf etməkdə idi. Rəssamların, heykəltəraşların yaradıcılığına partiya öz ideallarının əyani təşviqat vasitəsi kimi yanaşsa da, müxtəlif təzyiq vasitələri ilə onları bu ideallara xidmətə təhrik etsə də, istedadlı fırça və tişə ustaları yetişmiş, bəşəri ideallar tərənnüm edən yüzlərlə əsər yaranmışdı. Görkəmli rəssam Səttar Bəhlulzadənin “Qudyalçay vadisi”, “Kəpəzin göz yaşları”, “Şəlalə” və “Xəzər üzərində axşam” mənzərələri milli rəngkarlığın ən gözəl nümunələri idi. Tahir Salahovun “Səhər qatarı”, “Bəstəkar Qara Qarayevin portreti”, “Təmirçilər”, “Xəzər üzərində”, “Ramana kəndi” və başqa əsərləri bədii əlvanlığı, estetik kamilliyi, müasirliyi və novatorluğu ilə səciyyələnirdi. O, 20 ilə qədər SSRİ Rəssamlar İttifaqının birinci katibi olmuşdu. Mikayıl Abdullayevin, Vəcihə Səmədovanın, Salam Salamzadənin, Toğrul Nərimanbəyovun, Tağı Tağıyevin, Maral Rəhmanzadənin, xalçaçı-rəssamlar Lətif Kərimovun, Kamil Əliyevin, plakat ustası Hacıağa Nəzərovun və başqalarının əsərləri sənətkarlıq baxımından yetkin və təkrarolunmaz idi. Elmira Şaxtaxtinskayanın “Azərbaycan qədim mədəniyyət diyarıdır” silsilə plakatları özünün orijinal forma - biçiminə, klassik irsə bağlılığına görə xalqın mədəni həyatında hadisəyə çevrilmişdi.

Görkəmli heykəltəraşlar Fuad Əbdürrəhmanov “Nizami Gəncəvi” (Gəncədə 1946-cı ildə, Bakıda 1949-cu ildə qoyulub), “Azad qadın” (1960-cı il), Səməd Vurğun (1961-ci il), Cəlal Qaryağdı “M.Ə.Sabir” (1958-ci il), “N.Nərimanov” (1972-ci il), Ömər Eldarov “Natəvan” (1960-cı il), Tokay Məmmədov “Üzeyir Hacıbəyov” (1960-cı il), Ömər Eldarov və Tokay Məmmədov “Füzuli” (1960ci il), Tokay Məmmədov və İbrahim Zeynalov “Nəsimi” (1980-cı il), Mirələsgər Mirqasımov “Cəlil Məmmədquluzadə” (1974-cü il, Naxçıvan), “Cəfər Cabbarlı” (1982-ci il) kimi dərin ifadəli və möhtəşəm sənət əsərləri yaratmışdılar. Azərbaycanın fırça və tişə ustalarının əsərləri dünya sərgilərində böyük maraqla qarşılanırdı. F.Əbdürrəhmanovun yaratdığı heykəltaraşlıq əsərləri Moskva (“Çoban”-Tretyakov Qalereyası), Omsk, Almatı, Ulan-Bator, Düşənbə və Buxara şəhərlərini də bəzəyirdi. Düşənbədə Rudakinin (1964), Buxarada İbn Sinanın (1975) heykəlləri böyük heykəltəraşa dünya şöhrəti qazandırmışdı. Ömər Eldarovun yaratdığı Ayninin əzəmətli heykəli Düşənbədə ucaldılmışdı (1978).

Müharibədən sonrakı ilk illərdə Bakı şəhərində əsas magistralların rekonstruksiyası və binaların tikinti layihələri tərtib edildi. Bu layihələr üzrə şəhərin şimal-qərb, daha sonra şimal və şimal-şərq hissələrində yaşayış massivləri salındı. Naxçıvan, Gəncə, Xankəndi, Sumqayıt, Əli Bayramlı və b. şəhərlərdə böyük yaşayış massivləri lahiyələşdirildi və tikildi. Respublikada bütün şəhərlərin baş planı hazırlanıb təsdiq olunmuşdu. Gözəl memarlıq abidələri-Respublika Kitabxanası (1956, M.Hüseynov), Akademik Dram Teatrı (1956, H.Əlizadə, M.Mədətov), Respublika Stadionu (1959, O.İsayev, L.Qansirovski, Q.Sergeyev), Politexnik İnstitutu (1954, S.Dadaşov, M.Hüseynov), “Alimlər Evi” (1953, H.Hüseynov, S.Dadaşov), “Buzovnaneft” işçiləri üçün evlər (yenə onlar), Hökumət Evi (1954, P.Rudivev), Elmlər Akademiyası Kompleksi (1964, M.Hüseynov, S.Dadaşov) və b. yaradılmışdı.

Bu illərdə respublikada sənaye memarlığı geniş inkişaf etmişdi. “Elektroterm” Zavodu, Bakı Kondisionerlər Zavodu”, “Azərbaycan” Nəşriyyatı Kompleksi, Zərgərlik Zavodu, “Neftkimyaavtomat” Zavodu, Dərin Dəniz Özülləri Zavodunun binaları buna nümunə idi.

Beləliklə, Sovet rejimi şəraitində belə XX əsrin 40-50-ci illərindən başlayaraq, Azərbaycan musiqi mədəniyyəti, rəssamlıq, kino sənəti, memarlıq dünya şöhrəti qazandı, Azərbaycanı bütün dünya arenasında təmin edən bəstəkarlar və memarlar yetişdi.

**Vahid ÖMƏROV,**
**fəlsəfə üzrə fəlsəfə doktoru**




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə “Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği” istiqaməti çərçivəsində hazırlanıb*

# Səs

Son səhifə 20 oktyabr

## “Gülən fındığ”ın həyatverici keyfiyyətləri



Fıstıq haqqında ilk məlumatlar eramızdan əvvəl VII minillikdə Türkiyədə və Yaxın Şərq ölkələrində verilib. Onu Avropaya romalılar gətirib. O vaxt fıstıq əsasən İran, Suriya, İspaniya və Şimali Amerikada yetişdirilirdi. Keçən əsrin 30-cu illərində Amerikaya aparılandan sonra daha çox şöhrət qazanıb. AZƏRTAC xəbər verir ki, fıstıq Şərqin dəyərli bitkilərindən biridir, xüsusilə İranda onu zadəganlıq və tərəqqi simvolu sayırlar. Farslar üçün fıstıq pulu əvəz edirdi.

Qədim zamanlarda fıstıq ağacına “sehrli fındıq” adı verilmişdi. Tam açılmamış qabıqdan görünən çəyirdək gülümsəyən ağıza bənzədiyinə görə onu “gülən fındıq” da adlandırırlar. Fıstıq ağacı erkək və dişi olur. Çəyirdəkli meyvəsini gecə vaxtı yığırlar, çünki gündüz yığılanda meyvələrin tərkibindəki efir yağları güclü baş ağrısı və sərxoşluq verir. Meyvəsinin içi yaşıl rəngdə olur, gözəl dad və iyə malikdir. Fıstıq meyvəsi dondurma, tort, konfet və surroqat kofelərin tərkibinə qatılır. Kolbasa istehsalında, ətriyyat sənayesində və tibdə də geniş istifadə olunur.

Qida məhsulu kimi fıstıq yüksək kalorilidir və onun tərkibi bitki yağları, fol və amin turşuları, fosfor, maqnezium, sink və dəmir, həmçinin müxtəlif vitaminlərlə zəngindir.

Sinir toxumaları, ürək, qaraciyər və digər orqanların fəaliyyətini yaxşılaşdırır, hüceyrələrin böyüməsi və yenilənməsinə, qanda xolesterinin miqdarının azalmasına kömək edir, qırışları hamarlaşdırır. Ödqovucu keyfiyyətə malikdir, yuxusuzluq və yorğunluq zamanı faydalıdır, yaddaşı, qavrama qabiliyyətini və eşitməni gücləndirir. Siqaret və spirtli içkinin təsirini azaldır. Hər gün 30 qram fıstıq yemək ürək-damar xəstəlikləri riskini xeyli dərəcədə azaldır.

Fıstıqda xolesterin yoxdur və qanda olan xolesterinin səviyyəsini aşağı salır. Fıstıqda olan protein mal ətindən 2, fosfor isə 4 dəfə çoxdur. Ondan şəkərli diabetdə də istifadə olunur, çünki nazik bağırsaqda qlükozanın sorulmasını azaldır və qanda şəkərin səviyyəsini aşağı endirir. 100 qram fıstıqda 4 qram kəpək var və bu, buğda, düyü və kartofla müqayisədə 3 qram çoxdur.

Lakin fıstıqdan çox istifadə edəndə allergik reaksiya yaranır. Gün ərzində 100 qramdan çox fıstıq yemək müəyyən problemlər yarada bilər. Hamilə qadınların da ondan istifadə etməsi zərərlidir, tərkibindəki efir yağları saya əzələlərə tonuslandırıcı təsir göstərdiyinə görə vaxtından əvvəl düşüklərə səbəb ola bilər.

## Avropada daş dövrünə aid məzarlıq aşkarlanıb



Arxeoloqlar Moraviyanın Rayqrad rayonunda şəhərində daş dövrünə aid məzarlıq və dəmir dövrünə aid edilən iki qəbir aşkarlayıblar.

AZƏRTAC CTK agentliyinə istinadla xəbər verir ki, indiki tapıntılar və həmin ərazidə daha əvvəl tapılan əşyalar bu rayonda qədim insanların yaşayış yerləri olduğunu deməyə əsas verir. Arxeoloq Rixard Bişko deyib ki, məzarlıq texniki pavilyonun tikintisi zamanı tapılıb. Skeletlərin sümükləri yanı üstə uzadılıb. Bu da o dövr üçün xarakterikdir. Qəbirdə qab-qaşıq və digər əşyalar da olub.

## “Qarabağ” Çempionlar Liqasında ilk xalını qazanıb!



Ağdamın “Qarabağ” futbol klubu UEFA Çempionlar Liqasının qrup mərhələsinin üçüncü turu çərçivəsində oktyabrın 18-də Bakı Olimpiya Stadionunda İspaniyanın “Atletiko Madrid” komandası ilə qarşılaşıb. Fransalı baş hakim Ruddi Buquetin idarə etdiyi oyun qolsuz heç-heçə ilə başa çatıb və “Qarabağ” komandası UEFA Çempionlar Liqasında ilk xalını qazanıb.

UEFA Çempionlar Liqasında keçirdiyi əvvəlki oyunlara nisbətən bu görüşdə daha inamlı təsir bağışlayan “Qarabağ” rəqibin qapısı qarşısında ilk təhlükəli vəziyyəti matçın 4-cü dəqiqəsində yaradıb. Ağdamlıların sürətli hücumu zamanı cərimə meydançasına daxil olan Pedro Enrikenin Dino Ndlovuya ötürməsinə son anda müdafiəçilər mane olublar. Matçın 12-ci dəqiqəsində komandamızın sürətli əks-hücumu zamanı Mahir Mədətovun ötürməsindən sonra Riçard Almeydanın vurduğu top müdafiəçilərə toxunaraq meydandan çıxıb.

Oyunun 24-cü dəqiqəsində Antuan Qrizmanın ötürməsindən sonra Kevin Qameyro “Qarabağ”ın qapıçısı ilə təkbətək qalsa da, İbrahim Şehiç hücumçunu qabaqlayaraq topu götürə bilib. Bir dəqiqə sonra Nikolas Qaytanın vurduğu top qapının üstündən keçib. Matçın 27-ci dəqiqəsində isə İbrahim Şehiç qonaqların hücumçusu Karrasko ilə dueldən qalib ayrılaraq qola mane olub.

Görüşün 32-ci dəqiqəsində “Qarabağ”ın növbəti əks-hücumu zamanı Dino Ndlovunun Mahir Mədətova ötürməsindən sonra rəqibin qapısı qarşısında yaranan təhlükəni müdafiəçilər son anda sovuşdura biliblər. Bir dəqiqə sonra Mahir Mədətovun qüvvətli zərbəsindən sonra top müdafiəçilərə toxunaraq meydanı tərk edib.

Qarşılaşmanın 39-cu dəqiqəsində İbrahim Şehiç A.Qrizmanın fərqlənməsinə imkan verməyərək komandasını növbəti dəfə qoldan xilas edib. Komandaların səylərinə baxmayaraq, matçın ilk hissəsində hesab açılmayıb.

“Atletiko Madrid” futbolçuları ikinci hissədə təşəbbüsə yiyələnsələr də, ilk təhlükəli vəziyyəti komandamız yaradıb. Oyunun 63-cü dəqiqəsində Mahir Mədətovun ötürməsindən sonra Dino Ndlovunun vurduğu topu rəqib komandanın qapıçısı tutub. Bir dəqiqə sonra Miçelin ötürməsindən sonra qonaqların cərimə meydançasına daxil olan Pedro Enrikenin zərbəsi bir qədər dəqiq olmayıb.

Matçın 75-ci dəqiqəsində ağdamlılar hakimin ədalətsiz qərarı ilə üzləşərək meydanda sayca azlıqda qalıblar. Rəqibin cərimə meydançasında Dino Ndlovunun sürətli hücumunun qarşısının kobudluqla alınmasına baxmayaraq, hakim futbolçumuzu “cəzalandırıb”. İkinci sarı vərəqə alan Dino Ndlovu stadionu tərk etməli olub. Beləliklə, meydanda sayca azlıqda qalmasına və rəqibin artan təzyiqinə baxmayaraq, “Qarabağ” komandası qapısını toxunulmaz saxlayaraq UEFA Çempionlar Liqasında ilk xalını qazanıb. “Atletiko Madrid” isə üç turdan sonra iki xalla turnir cədvəlində üçüncü sırada qərarlaşıb. Ağdamlılar qrup mərhələsinin dördüncü turunda səfərdə “Atletiko Madrid”in qonağı olacaqlar.

## Messi avrokuboklarda 100-cü qolunu vurub



UEFA Çempionlar Liqasının qrup mərhələsinin üçüncü turu çərçivəsində “Olimpiakos” ilə oyun “Barselona” futbol klubunun hücumçusu Messi üçün əlamətdar olub. AZƏRTAC xəbər verir ki, Messi görüşün 61-ci dəqiqəsində fərqlənməklə avrokuboklarda vurduğu qolların sayını 100-ə çatdırıb. Otuz yaşlı argentinalı futbolçu qolların 97-sini Çempionlar Liqasında, 3-nü isə Avropa Super Kuboku yarışlarında vurub. Qeyd edək ki, Messi yalnız Kriştianu Ronaldudan geri qalır. Belə ki, portuqaliyalı futbolçu avrokubolarda 113 qol vurub.

## Azərbaycan şahmatçılarına FIDE-nin yeni titulları verilib

FIDE

Beynəlxalq Şahmat Federasiyasının saytında FIDE-nin yeni titul sahiblərinin (qrossmeysterlərin, ustaların, hakimlərin və təşkilatçıların) siyahısı dərc edilib. AZƏRTAC xəbər verir ki, FIDE-nin Prezident Şurasının Antalyada keçirilən 88-ci iclasında yeni titullara Azərbaycan təmsilçiləri Ülviyyə Fətəliyeva - qadın qrossmeysteri, Abdulla Qədimbəyli - beynəlxalq usta, Məhəmməd Muradlı isə beynəlxalq ustalığa namizəd adına layiq görülüblər.

### ELAN

ADPU-nun Fiziki tərbiyə və GÇH ixtisası üzrə IV kurs tələbəsi Salahlı Sevinc Əflatun qızına verilmə tələbə bileti itdiyi üçün etibarsız sayılır.

***

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Təhsildə Sosial-Psixoloji Xidmət ixtisası üzrə III tələbəsi Mete Görgülün adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.


*Baş redaktor:*

**Bəhruz Quliyev**

*Baş redaktorun müavinləri:*

**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

*Buraxılışa məsul: Mətləb Salahov*

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.
“Azərbaycan” nəşriyyatında çap olunur

*Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 5500